

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 27 (24.513)
18 iyul 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Müstəqillik tariximizin unudulmaz günü – Naxçıvana tarixi qayıdış



## Ulu Öndər Heydər ƏLİYEV:

*“1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş.”*

**Taleyin ümidinə buraxılan Naxçıvanın xilaskarı**

...22 iyul milli tariximizin ən əlamətdar günlərindən biridir. Həmin gün Ümummilli Lider Heydər Əliyevin Naxçıvana qayıdışı qədim diyarımızın taleyində dönüş nöqtəsinə çevrildi. Bu tarixi qayıdış sayəsində Naxçıvan işğal təhlükəsindən xilas oldu, Ermənistanın muxtar respublikanı təcrid etmək planları iflasa uğradı, ağır blokadanın yaratdığı iqtisadi tənəzzülün qarşısı alındı. Ümummilli Lider ən çətin məqamlarda xalqın yanında dayanaraq öz siyasi uzaqgörənliyi və qətiyyəti ilə Azərbaycanın dövlətçilik maraqlarını qorudu. 1987-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyündən və tutduğu yüksək vəzifələrdən istefa verən Heydər Əliyevin siyasi səhnədən uzaqlaşdırılmasından sonra Azərbaycana qarşı məkrli planların həyata keçirilməsi sürətləndi. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları daha da genişləndirildi, keçmiş “Dağlıq Qarabağın” və Naxçıvanın Azərbaycandan qoparılması istiqamətində müxtəlif cəhdlər göstərildi. Lakin Heydər Əliyevin prinsipial mövqeyi bu planların reallaşmasına imkan vermədi. Qəlbi daim Azərbaycanla döyünən Heydər Əliyev xalqının ən ağır günündə onun yanında olmağı özünə borc bildi. O, təhdidlərə və təzyiqlərə baxmayaraq, qərarından dönmədi, 1990-cı il iyulun 20-də Bakıya gəldi, iki gün sonra isə Naxçıvanda minlərlə insan tərəfindən böyük sevgi və ehtiramla qarşılandı. Çətin və blokada şəraitində yaşayan Naxçıvan əhalisi bu qayıdışı xilas yolu kimi dəyərləndirirdi. Səhifə ➡ 2

# Müstəqillik tariximizin unudulmaz günü – Naxçıvana tarixi qayıdış



(əvvəli 1-ci səhifədə)

## Naxçıvan şəhərində 80 minlik mitinq

22 iyul 1990-cı il tarixdə axşamüstü Naxçıvan şəhərinin mərkəzində 80 min insan toplaşmışdı. Hamı səbirsizliklə Ulu Öndərin həmin meydana gəlməsini gözləyirdi. İzdiham Heydər Əliyevin kürsüyə qalxmasını alqışlarla qarşıladı. Böyük şəxsiyyət sevinc dolu alqışlar altında etdiyi çıxışı ilə soydaşlarına sonsuz məhəbbətini ifadə etdi. 1990-cı illərdə Naxçıvanda yaşayan hər bir sakin yaxşı dərk edirdi ki, əzablı və məşəqqətli günlərini yaşayan Naxçıvanı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü Tanrı dahi və müdrik insanı öz doğma yurduna xilaskar kimi göndərib. Həmin ilin oktyabrında Naxçıvanda dövlət çevrilişinə cəhd göstərilsə də, xalqın Heydər Əliyevin ətrafında sıx birləşməsi bu məkrli planın qarşısını aldı. Naxçıvan sakinləri dövlətçiliyin müdafiəsində qətiyyət nümayiş etdirərək sabitliyin qorunmasına nail oldular.

## Naxçıvan Vətən oğlunu sevinclə qarşılayanda Bakıda nələr baş verirdi?

Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycanın taleyüklü bir dövrünə təsadüf edirdi. Həmin vaxt respublikada siyasi böhran dərinləşmiş, idarəetmədə ciddi problemlər yaranmış, Ermənistanın hərbi təcavüzü və daxili hərc-mərclik ölkəni ağır vəziyyətə salmışdı. Blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. 1990-cı il sentyabrın 30-da keçirilən parlament seçkilərində naxçıvanlılar Ümummilli Lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürdülər. O, Nehrəm seçki dairəsindən Azərbaycan Respublikası Ali Sovetinə və 2 nömrəli seçki dairəsindən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçildi.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin yeni tərkibdə ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə işə başladı. Sessiyada qəbul olunan tarixi qərarlar Azərbaycanın müstəqillik yolunda mühüm mərhələ oldu. Prezident İlham Əliyev həmin dövrün əhəmiyyətini belə qiymətləndirib: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi.***

***O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. Ovaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək Ulu Öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir".***

Məhz Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən mühüm qərarlar qəbul edildi. Muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Dövlət Bayrağı kimi qəbul olundu. Bu addımlar sonradan müstəqil Azərbaycan dövlətinin formalaşmasının siyasi əsaslarından birinə çevrildi. Ümummilli Liderin həyata keçirdiyi islahatlar və dövlətçilik kursu həmin dövrdə müxtəlif maneələrlə qarşılaşsa da, xalqın iradəsi və qətiyyəti sayəsində bu siyasət uğurla davam etdirildi.

Xalqa, Vətənə sədaqətlə xidmətin, qırılmaz tellərlə bağlılığın məntiqi nəticəsi olaraq 1991-ci il sentyabrın 3-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların və minlərlə insanın təkidi ilə Ulu Öndər Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da, Azərbaycan tarixində Ümummilli Liderin adı ilə bağlı olan daha bir səhifə açıldı. Sessiyadakı ilk çıxışında Ulu Öndər öz taleyini xalqa tapşırdığını bildirərək deyib: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yaqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

## Bugünkü müzəffər Ordunun təməli həmin illərdə atıldı

Ali Məclisin Sədri kimi fəaliyyətə başlayan Heydər Əliyev, ilk növbədə, blokada şəraitində yaşayan Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirdi. 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərarın qəbul edilməsi bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Sonrakı dövrdə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada müdafiə potensialı möhkəmləndirildi, hərbi texnika və silahlar qorunub saxlanıldı, Milli Ordunun formalaşdırılması istiqamətində mühüm zəmin yaradıldı. Bu gün qüdrətli Azərbaycan Ordusunun əsaslarının məhz həmin illərdə Naxçıvanda qoyulduğu danılmaz tarixi həqiqətdir.

## Gələcəyin partiyasının əsası Naxçıvanda qoyulub

Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Yeni Azərbaycan Partiyasının yaradılması ilə də əlamətdardır. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən gəlmiş 550-dən artıq nümayəndənin iştirakı ilə partiyanın təsis konfransı keçirildi. Bu hadisə Azərbaycanın siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu və sonrakı inkişafın əsas istiqamətlərini müəyyənləşdirdi.

## Qələbəyə, intibaha gedən yol

Həmin dövrdə ölkədə hökm sürən siyasi böhran, idarəetmədə yol verilən ciddi səhvlər və vətəndaş qarşıdurması Azərbaycan dövlətçiliyini ağır təhlükə ilə üz-üzə qoymuşdu. Belə mürəkkəb şəraitdə xalqın təkidli çağırışlarına cavab verən Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı Azərbaycanın xilası yolunda həlledici addım oldu.

22 iyul 1990-cı ildə Naxçıvandan başlanan xilaskarlıq missiyası üç il sonra Bakıda davam etdi. Ulu Öndərin rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, qanunun aliliyi təmin edildi, Konstitusiya qəbul edildi, dövlət idarəçiliyi müasirləşdirildi, iqtisadi inkişafın əsasını qoyan iri enerji layihələri həyata keçirildi və Azərbaycanın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəldi.

## Tapşırıq yerinə yetirildi

Ümummilli Lider Heydər Əliyev xalqın taleyüklü məqamlarında üzərinə götürdüyü xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi. Onun müəyyənləşdirdiyi dövlətçilik strategiyası Azərbaycanı sabitlik, inkişaf və tərəqqi yoluna çıxardı. Bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirilir.

Bu gün Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Vətən müharibəsində qazanılan tarixi zəfər və antiterror tədbirləri nəticəsində ölkəmiz öz suveren hüquqlarını tam təmin edib. İşğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, "Böyük Qayıdış" proqramı uğurla həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun ən güclü dövlətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi qüdrəti, hərbi gücü və beynəlxalq nüfuzu davamlı olaraq artır. Bütün bunlar vaxtilə Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunun məntiqi nəticəsi kimi dəyərləndirilir.

22 iyul 1990-cı ildə Naxçıvana qayıdış təkcə bir siyasi xadimin doğma yurda dönüşü deyildi. Bu hadisə Azərbaycan dövlətçiliyinin xilası, milli həmrəyliyin möhkəmlənməsi və müstəqil dövlət quruculuğunun yeni mərhələsinin başlanğıcı oldu. Naxçıvandan başlanan bu yol sonradan Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, qüdrətli dövlətə çevrilməsinə və tarixi zəfərə aparan yolun əsasını təşkil etdi. Biz Onun arzuladığı kimi Şuşaya getdik, Kəlbəcərin sərin bulaqlarından su içdik, Ağdamda muğam dinləyib, Xocalıya ədalət gətirdik. Bütün bunlara isə ***"Mənim ürəyim Azərbaycanlıdır, gecəm də Azərbaycanlıdır, gündüzüm də"***, – deyən dahi rəhbərin yolunda irəliləyərək nail olduq.

Aradan keçən 36 il göstərir ki, həmin tarixi qərarın əhəmiyyəti zaman keçdikcə daha aydın görünür. Xalqın öz Liderinə inamı və Ümummilli Liderin xalqa sədaqəti Azərbaycanın müasir tarixində silinməz iz qoydu. Bu səbəbdən 22 iyul yalnız təqvimdə qeyd olunan tarix deyil, dövlətçilik salnaməmizin ən şərəfli səhifələrindən biri kimi hər zaman ehtiramla xatırlanacaq.

✍ Ramiyə ƏKBƏROVA

# Qarabağa Böyük Qayıdış:



## ədalət bərpa olundu

### Həyat yenidən öz axarında

44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Prezident İlham Əliyev 2020-ci il noyabrın 10-da xalqa müraciətində işğaldan azad edilmiş torpaqların yenidən qurulacağını bildirmişdi: ***“Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq”.***

Vətən müharibəsində tarix yazan Azərbaycan dövləti müharibədən sonrakı dövrdə də bu sahədə dünyaya nümunə göstərdi. Ordumuzun şanlı Qələbəsinin davamı kimi Qarabağ hərb meydanından quruculuq meydanına çevrildi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan 30 illik işğaldan azad etdiyi torpaqlarda müharibədən cəmi bir il sonra misilsiz bərpa-quruculuq işlərinə başladı və bununla dünyanı heyrətləndirdi. Üstəlik, bu işlər heç kimin köməyi və ya dəstəyi olmadan, dövlətimizin öz imkanları hesabına həyata keçirilir. Halbuki müharibədən çıxmış bir ölkənin yenidən ayağa qalxması üçün adətən uzun illər tələb olunur. Azərbaycan isə cəmi beş il ərzində sübut etdi ki, Vətənini sevən Lideri və onun ətrafında sıx birləşən xalqı olan dövlət hər bir sahədə uğur qazana bilir.

Bu gün Ağdam, Xocalı, Zəngilan və Şuşaya qayıdan sakinlərin sevincinə hər gün şərik olur, dövlət başçısının işğaldan azad olunmuş ərazilərə etdiyi səfərləri qürur hissi ilə izləyirik.

Qısa müddət ərzində Qarabağın dirçəldilməsi və bölgədə genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılması Azərbaycanın qüdrətini bir daha nümayiş etdirir. Bu gün Şuşada, Laçında və digər azad edilmiş ərazilərdə yaşayan, çalışan insanlar, eləcə də dünya ictimaiyyəti ***“Sözümüz imzamızdır”*** ifadəsinin təsadüfi deyilmədiyinin şahididir. Dövlət başçısının iyulun 11-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfəri zamanı dediyi kimi: ***“Ədalət bərpa olundu”.***

### “Yaşıl enerji zonası”na çevrilən Qarabağ və Şərqi Zəngəzur

Ulu Öndərin layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad olunmuş torpaqlarla bağlı ilk tapşırıqlarından biri həmin ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması olub. Bunun üçün, ilk növbədə, düşmənin yararsız hala saldığı suvarma kanalları və su anbarlarının bərpasına başlanılıb.

11 iyulda dövlət başçısının Laçın rayonunda təməlini qoyduğu “Həkəriçay” su anbarı da onlardan biridir. Ümumi tutumu 100 milyon kubmetr, faydalı həcmi isə 90 milyon kubmetr olacaq su anbarı Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd və Ağdam rayonlarında, ümumilikdə, təxminən, 700 min nəfərin saniyədə 2,5 kubmetr həcmində keyfiyyətli içməli su ilə təmin olunması potensialına malik olacaq. Bundan başqa, “Həkəriçay” su anbarından qidalanacaq magistral boru kəmərinin üzərində ümumi gücü 10,81 MVt olan 3 su elektrik stansiyasının (SES) tikintisi də nəzərdə tutulur.

Xüsusilə vurğulanmalıdır ki, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının “yaşıl enerji zonası”na çevrilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq “AzərEnerji” ASC tərəfindən regionda su




elektrik stansiyalarının tikintisi ardıcıl şəkildə davam etdirilir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının su ehtiyatları, əsasən, ölkə ərazisində formalaşır. Belə ki, Kiçik Qafqazın ölkə daxilində Tərtərçaydan sonra ikinci ən böyük çayı hesab edilən Həkəriçay və onun qolları – Hoçaz, Şəlvə və Zabux çayları üzərində indiyədək ümumi gücü 72,6 MVt olan 11 su elektrik stansiyası tikilib. Hazırda Laçın rayonunun 8-10 MVt-lıq elektrik enerjisinə olan tələbatı tam şəkildə “yaşıl enerji” hesabına ödənilir, artıq qalan enerji isə ölkənin vahid enerji sisteminə ötürülür. Bundan əlavə, ümumi gücü 10,7 MVt olan daha 3 yeni SES-in tikintisi davam etdirilir və onların ilin sonunadək istismara verilməsi nəzərdə tutulur. Dövlət başçısının iyulun 11-də Laçın rayonunda açılışında iştirak etdiyi Hoçaz çayı üzərində yerləşən “Ağbulaq-1” (14,7 MVt), “Ağbulaq-2” (14,25 MVt) və “Şeylanlı” (4 MVt) su elektrik stansiyaları da Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji zonası”na çevrilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin davamıdır.

### Qarabağ turizm cənnətidir

Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşanın tarixi abidələri və özünəməxsus memarlığı yeni turizm marşrutlarının formalaşdırılması üçün geniş imkanlar açır. Dövlət başçısı son beş ildə Şuşa və Xankəndi şəhərlərinin yenidən qurulması, tarixi abidələrin və görkəmli şəxsiyyətlərin ev-muzeylərinin bərpası ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb. Həmin sərəncamlara əsasən Molla Pənah Vaqifin məqbərəsi, Bülbülün ev-muzeyi, Mehmandarovların malikanəsi və bir sıra digər tarixi abidələr bərpa olunmaqla yanaşı, müasir standartlara cavab verən hotellər də inşa edilib.

İyulun 11-də dövlət başçısının yeni korpusları ilə tanış olduğu “Yasəmən”, eləcə də Xankəndi şəhərində açılışını etdiyi “Xankəndi” hotelləri bu istiqamətdə həyata keçirilən layihələrin uğurlu nümunələrindəndir.

Dövlət başçısının 2022-ci ildə imzaladığı Sərəncama əsasən təmir olunan Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tar sənətinin inkişafına mühüm töhfələr vermiş Mirzə Əsəd oğlu Sadığın – Sadıqcanın yaşadığı ev də gələcəkdə Şuşaya səfər edən mədəniyyətsevərlərin ziyarət məkanlarından birinə çevriləcək. Şuşada Müzəffdə Qələbənin rəmzi kimi şəhərin qonaqlarında dərin təəssürat yaradacaq.

### Uşaqlarımız doğma torpaqlarımızda böyüyür

Dövlət başçısı 11 iyulda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfəri zamanı Xocavənd rayonunun Quzeyxırman, Güneyxırman kəndlərinin sakinləri ilə görüşüb, qürurla qürurla bildirib: ***“Böyük Qayıdış” proqramı da uğurla icra edilir. Deməli ki, hər həftə olmasa da, hər ay bir qrup keçmiş köçkün öz doğma torpağına qayıdır, yerləşir, dövlət tərəfindən belə gözəl evlərlə təmin edilir”.***

Dövlətimizin başçısı sakinlərlə görüşü zamanı onlarla səmimi söhbət edib. Quzeyxırman və Güneyxırman kəndlərində sosial infrastrukturun yaradılması istiqamətində görülən işlərlə tanış olub. Güneyxırman kəndində, ümumilikdə, 549 fərdi ev var. Onlardan da 170-i yararsız, 379-u qismən yararlıdır. Artıq 50 ev istismara hazırdır, 147 evdə isə təmir işləri davam edir. Digər 182 evin isə təmir-bərpası ilə bağlı hazırlıq işləri gedir. Bir neçə gün əvvəl kəndə 18 ailə (72 nəfər) qayıdıb. Quzeyxırman kəndində 447 fərdi ev var. Onlardan da 65-i yararsız, 382-si qismən yararlıdır. 244 evdə təmir-bərpa işləri aparılır və bunlardan da 100-ü artıq istismara hazırdır. Digər 144 evdə görülən işlər növbəti aylarda yekunlaşacaq. Qalan 138 evdə isə təmir-bərpa işlərinə hazırlıq görülür. Bir neçə gün əvvəl kəndə ilkin mərhələdə 21 ailə (87 nəfər) qayıdıb. Prezident İlham Əliyev Şuşa rayonunun Kiçik Qaladərəsi kəndinə də səfər edərək sakinlərlə görüşüb, kənddə görülən işlər barədə məlumatlandırılıb. Qeyd olunub ki, Kiçik Qaladərəsində 66 fərdi ev mövcuddur. Onlardan 19-u yararsız, 47-si isə qismən yararlıdır. Bu evlərdən artıq 26-sı istismara hazırdır. Gələn il isə 21 ev hazır olacaq. İlkin mərhələdə kəndə 15 ailə (51 nəfər) qayıdıb, ilin sonunadək isə daha 11 ailənin (45 nəfərin) köçürülməsi nəzərdə tutulur.

Dövlət başçısının bütün səfərləri kimi, 11 iyulda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfəri də Qarabağa yeni həyat, yeni nəfəs gətirdi və xalqımızın birliyinin nələrə qadir olduğunu nümayiş etdirdi. Dövlət başçısının da dediyi kimi: ***“Əlbəttə, bu birlik uzun illər ölkəmizi gücləndirirdi və addım-addım, hər gün biz bu şanlı Qələbəyə doğru irəliləyirdik. Hərə öz yerində – kimi təsərrüfat işləri ilə məşğul idi, kimi ordu quruculuğu ilə, kimi uşaqları vətənpərvərlik ruhunda böyüdürdü. Hərə öz yerində bu tarixi günü yaxınlaşdırırdı. Şəhidlərimizin ruhu qarşısında bu gün biz yenə də özümüzə və xalqımıza, dövlətimizə and içməliyik ki, istənilən halda biz öz milli ləyaqətimizi qoruyacağıq. Bundan sonra heç kim heç vaxt bizim xalqımıza zərər vurmayacaq. Dövlətimiz güclüdür, ordumuz güclüdür, iradəmiz yerindədir. İkinci Qarabağ müharibəsi və ondan 3 il sonra antiterror***



***əməliyyatı, bir daha deyirəm, bütün dünyaya xalqımızın nəyə qadir olduğunu göstərdi. Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət, heç bir xalq buna oxşar Qələbə qazanmamışdır, özü də cəmi 44 gün ərzində”.***

### Böyük Qayıdışın ən böyük uğuru – insan amili

Bütün bunlar dövlətin gücünü, xalqın iradəsini və “Böyük Qayıdış” proqramının uğurla həyata keçirildiyini əyani şəkildə nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihələr Azərbaycanın iqtisadi qüdrətini, siyasi iradəsini və milli birliyini bir daha təsdiqləyir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri təkcə ölkəmiz üçün deyil, müharibədən sonrakı bərpa prosesini yaşayan dövlətlər üçün də nümunə kimi dəyərləndirilir. Bu gün artıq işğaldan azad olunmuş torpaqlarımızda həyat bütün sahələri ilə bərpa olunur. Yeni yollar, hava limanları, məktəblər, xəstəxanalar, yaşayış məntəqələri, sənaye və kənd təsərrüfatı obyektləri bu torpaqlara yeni nəfəs verir. Ən əsası isə illərlə doğma yurd həsrəti yaşayan insanlar yenidən öz evlərinə qovuşur, uşaqlar ata-baba yurdlarında böyüyürlər. Bütün bunlar bir daha göstərir ki, Böyük Qayıdış yalnız Dövlət Proqramı deyil, həm də tarixi ədalətin bərpası, milli həmrəyliyin təntənəsi və gələcəyə inamın ifadəsidir. Qarabağ bu gün təkcə yenidən qurulmur, həm də yeni inkişaf mərhələsinə qədəm qoyur.



Ramiyə ƏKBƏROVA

# Azərbaycan-Slovakiya strateji tərəfdaşlığı:



## siyasi etimaddan praktik əməkdaşlığa doğru

***Müasir beynəlxalq münasibətlər sistemində dövlətlər arasında tərəfdaşlığın davamlılığı, ilk növbədə, qarşılıqlı etimad, ortaq maraqlar və konkret nəticələr doğuran əməkdaşlıq mexanizmləri ilə müəyyən olunur. Bu baxımdan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış, milli maraqlara əsaslanan və praqmatik xarici siyasət kursu ölkəmizin müxtəlif regionlarla etibarlı tərəfdaşlıq əlaqələri qurmasına möhkəm zəmin yaradıb. Avropa İttifaqına üzv dövlətlərlə əlaqələrin inkişafı bu siyasətin mühüm istiqamətlərindən biridir. Son illərdə Azərbaycan-Slovakiya münasibətlərinin yüksələn xətt üzrə inkişafı da məhz qarşılıqlı etimada söykənən və strateji məzmun qazanan əməkdaşlığın uğurlu nümunələrindən biri kimi diqqət çəkir. İki ölkə arasında əlaqələrin yeni mərhələyə yüksəlməsi və gələcək əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana səfəri mühüm siyasi əhəmiyyət daşıyır. Səfər çərçivəsində Şuşada keçirilən yüksək səviyyəli görüşlər yalnız ikitərəfli münasibətlərin mövcud vəziyyətinin müzakirəsi deyil, həm də Azərbaycan-Slovakiya tərəfdaşlığının gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əlamətdar hadisədir. Səfər zamanı Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlinin qoyulması isə Azərbaycan-Slovakiya əməkdaşlığının sosial və humanitar istiqamətlərdə də inkişaf etdiyini göstərir. Məktəbin Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunması, eləcə də kəndin inşasında Slovakiya şirkətlərinin iştirak etməsi iki ölkə arasında münasibətlərin yalnız siyasi dialoqla məhdudlaşmadığını, konkret layihələr və qarşılıqlı faydalı təşəbbüslərlə zənginləşdiyini ortaya qoyur.***



İyulun 14-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyevlə Slovakiya Prezidenti Peter Pelleqrininin keçirdiyi görüşlər və mətbuata verdikləri bəyanatlar göstərir ki, iki ölkə arasında münasibətlər artıq siyasi dialoq mərhələsini geridə qoyaraq konkret layihələr və uzunmüddətli strateji hədəflər üzərində qurulan yeni inkişaf mərhələsinə daxil olub. Prezidentlərin səsləndirdikləri fikirlər Azərbaycan-Slovakiya əməkdaşlığının perspektivlərinin kifayət qədər geniş olduğunu bir daha təsdiqləyir.

Slovakiya Prezidentinin səfərinin Qarabağdan başlaması xüsusi siyasi və simvolik məna daşıyır. Bu, Qarabağın artıq beynəlxalq iqtisadi əməkdaşlıq məkanına çevrildiyini göstərir. Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiya şirkəti tərəfindən həyata keçirilən "Ağıllı kənd" layihəsi Avropa şirkətlərinin regionun bərpasında fəal iştirakını təsdiqləyən mühüm nümunədir. Bu fakt həm də Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünə və postmünaqişə dövründə aparılan quruculuq siyasətinə verdiyi dəstəyin praktik ifadəsidir. Prezident İlham Əliyev Slovakiya Prezidenti Peter Pelleqrini ilə mətbuata bəyanatında da Slovakiyanın Azərbaycanın Böyük Qayıdış siyasətinə bu dəstəyini yüksək qiymətləndirdi. Sitat: ***"Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti "Ağıllı kənd" layihəsini icra edir və bu layihə ilə tanış olacağıq".***

Göründüyü kimi, iki ölkə arasında 2024-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə artıq real nəticələr verməyə başlayıb. Müntəzəm siyasi təmaslar, qarşılıqlı yüksək səviyyəli səfərlər, hökumət üzvlərinin və biznes nümayəndələrinin intensiv dialoqu münasibətlərin institusional əsaslarını daha da möhkəmləndirir.

Təbii ki, enerji sahəsi Azərbaycan-Slovakiya tərəfdaşlığının strateji istiqamətlərindən biri olaraq qalır. Məlum olduğu üzrə son illərdə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolu əhəmiyyətli dərəcədə artıb. Respublikamız hazırda 16 ölkəyə mavi yanacaq nəqli həyata keçirir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Bu situasiya və göstəricilər Azərbaycanın enerji resurslarının şaxələndirilməsi və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində mühüm töhfəsini əks etdirir. Avropada təbii qaza olan tələbatın yüksək olaraq qalması Azərbaycanın enerji tərəfdaşları coğrafiyasının genişlənməsi üçün yeni imkanlar yaradır. Məhz bu kontekstdən Slovakiya Prezidentinin mətbuata bəyanatında enerji böhranı zamanı Azərbaycanın göstərdiyi dəstəyi xüsusi vurğulaması da ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyinin beynəlxalq səviyyədə dəstəkləndiyini göstərir. Eyni zamanda 2027-ci ildən sonrakı dövr üçün uzunmüddətli enerji əməkdaşlığı ilə bağlı aparılan danışıqlar münasibətlərin davamlı xarakter daşıdığını nümayiş etdirir.

Azərbaycanla Slovakiya arasında iqtisadi əməkdaşlığın məzmunu da keyfiyyətcə yeni mərhələyə keçir. Tərəflər münasibətlərin yalnız ticarət əlaqələri ilə məhdudlaşmadığını, daha geniş və uzunmüddətli tərəfdaşlıq formatının formalaşdırılmasının vacibliyini vurğulayırlar. Bakıda keçiriləcən Azərbaycan-Slovakiya biznes-forumu bu sahədə mövcud imkanların genişləndirilməsi və yeni layihələrin təşviqi baxımından mühüm platforma olacaq.

Azərbaycanın beynəlxalq nəqliyyat və logistika sistemində artan rolu da Slovakiya tərəfindən yüksək qiymətləndirilir. Prezident Peter Pelleqrininin mətbuata bəyanatında Azərbaycanı Şərqlə-Qərbi birləşdirən əsas nəqliyyat qovşaqlarından biri kimi xarakterizə etməsi ölkəmizin Orta Dəhliz və digər beynəlxalq marşrutlardakı strateji əhəmiyyətinin Avropa tərəfindən yüksək dəyərləndirildiyini göstərir. Eyni zamanda müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq da Azərbaycan-Slovakiya münasibətlərinin mühüm istiqamətlərindən birinə çevrilir. 2027-ci və 2028-ci illərdə Slovakiyanın Bakıdakı səfirliyi vasitəsilə NATO-nun Azərbaycanda Əlaqələndirici Səfirliyi funksiyasını həyata keçirəcək olması, hərbi-texniki əməkdaşlığın genişləndirilməsi və müdafiə sənayesi sahəsində dialoqun inkişaf etdirilməsi tərəflər arasında qarşılıqlı etimadın göstəricisidir. Bununla yanaşı, Slovakiyanın Azərbaycanın regional sülh təşəbbüslərinə verdiyi dəstək ölkəmizin Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində həyata keçirdiyi siyasətə beynəlxalq diqqətin artdığını nümayiş etdirir. Bu ilin oktyabr ayından etibarən fəaliyyətə başlayacaq birbaşa aviareyslər turizm, təhsil, mədəniyyət və biznes əlaqələrinin inkişafına əlavə imkanlar yaradacaq.

Ümumilikdə, iyulun 14-də Şuşada keçirilən yüksək səviyyəli görüşlər və prezidentlərin bəyanatları göstərir ki, Azərbaycan-Slovakiya münasibətləri qarşılıqlı etimad, siyasi iradə və ortaq maraqlar əsasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Əminəm ki, bundan sonra da bu münasibətlər uğurla inkişaf edəcək. Çünki biz konkret işlərin tərəfdarıyıq. Hər iki tərəf ikitərəfli münasibətlərə çox böyük önəm verir və deyə bilərəm ki, son illər ərzində çox güclü tərəfdaşlıq yaradılmışdır".***

**Nail ƏSGƏROV**

# Zəngəzur dəhlizi Şərqlə Qərbi birləşdirən ən təhlükəsiz quru yolu olacaq



***A**zərbaycanın, ümumən, Türk dünyasının mədəniyyət paytaxtı Şuşa qlobal fikir mübadiləsinin, beynəlxalq dialoqun və media əməkdaşlığının mühüm mərkəzlərindən birinə çevrilib. Artıq ənənə halını alan Şuşa Qlobal Media Forumu beynəlxalq səviyyədə informasiya məkanında baş verən dəyişikliklərin, medianın qarşısında duran yeni çağırışların, qarşılıqlı əməkdaşlıq imkanlarının və dünya gündəminin digər aktual mövzularının müzakirəsi üçün nüfuzlu platforma kimi qəbul olunur. İyulun 13-14 tarixlərində keçirilən IV Şuşa Qlobal Media Forumu da özündə mühüm çağırışları və reallıqları əks etdirdi. Forumda ənənəvi olaraq çoxsaylı xarici jurnalistlərin müxtəlif suallarını ətraflı cavablandıran Prezident İlham Əliyev bir daha Azərbaycanın qlobal gündəliklə bağlı mövqeyini, strateji baxışını və ölkənin artan nüfuzunu əks etdirən mühüm mesajlar səsləndirdi. Dövlətimizin başçısı forumdakı çıxışında Azərbaycanın qlobal gündəliyini aydın şəkildə müəyyən etdirdi.*

Prezident İlham Əliyevin forumda xüsusi diqqət yönəltdiyi məqamlardan biri də Azərbaycanın bağlantı imkanları, Orta Dəhliz və Zəngəzur dəhlizi məsələləri idi. Dövlətimizin başçısı birmənalı vurğuladı ki, ABŞ Prezidenti və onun komandası Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanı da bu sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə, Ağ Evdə keçirilən tarixi görüş zamanı Birgə Bəyannamə imzalandı. Azərbaycanın coğrafi mövqeyi, enerji və nəqliyyat layihələri ölkələr, xalqlar arasında sıx bağlantı yaradır. Hazırda Azərbaycanın enerji diplomatiyasının uğurları göz qabağındadır. Şuşa Qlobal Media Forumunda bütün bu məsələlərə xüsusi diqqət yönəldildi, Azərbaycanın malik olduğu imkanlar, istər ənənəvi, istərsə də bərpa olunan enerji sektorunda əlaqələrin möhkəmləndirilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması üçün potensial imkanlar diqqətə çatdırıldı.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasət ölkəmizi regionun nəqliyyat və logistik habına çevirməkdədir. Orta dəhliz və Zəngəzur dəhlizi layihələri yalnız nəqliyyat infrastrukturu kimi qiymətləndirilməməlidir. Beynəlxalq yükdaşımalar bir tərəfdən ölkənin geosiyasi mövqeyini gücləndirir, digər tərəfdən, dövlət gəlirlərini artırır. 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi yaxın gələcəkdə Orta Dəhlizin mühüm seqmentinə çevrilərək Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına da imkan yaradacaq. Rəsmi rəqəmlər göstərir ki, ötən il beynəlxalq yükdaşımalardan əldə edilən gəlir 3,3 milyard manat olub. Bu o deməkdir ki, Azərbaycan il ərzində beynəlxalq yükdaşımalardan 7 milyard manata yaxın gəlir əldə edəcək. Bu, iqtisadiyyatın şaxələndirilməsinə dəstək olmaqla yanaşı, Azərbaycan dövlət gəlirlərinin artmasına şərait yaradacaq.

Zəngəzur dəhlizi həm münaqişə tərəflərinin, həm də beynəlxalq vasitəçilərin rəsmən tanıdığı, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması və iqtisadi blokadanın yarılması üçün əsas hüquqi mexanizm kimi qəbul edilir. Bu layihənin reallaşması Azərbaycanın milli strateji prioritetlərinin icrasında müstəsna rol oynayacaq. Ən əsası, dəhlizin fəaliyyətə başlaması ilə uzun illərdir, təcriddə qalan Naxçıvan Muxtar Respublikası ilə birbaşa və maneəsiz quru əlaqəsi təmin olunacaq. Ümumi uzunluğu 42 kilometr olan bu xətt Naxçıvanı iqtisadi cəhətdən canlandıracaq, onun ölkənin digər iqtisadi rayonları ilə sıx qovuşmasını stimullaşdıracaq. Müasir yol-nəqliyyat infrastrukturu, rabitə və enerji xətlərinin çəkilişi muxtar respublikanı mühüm logistik mərkəzə çevirəcək. Bu isə, öz növbəsində, turizm və ticarət əlaqələrinin şaxələnməsinə, yerli sənayenin ixrac imkanlarının genişlənməsinə zəmin yaradacaq. Yeni dəhliz Naxçıvanda istehsal edilən məhsulların dünya bazarlarına çıxışını asanlaşdıracaq. Bölgənin zəngin təbii ehtiyatlarının səmərəli istismarı və onların xarici ölkələrə ixracı məhz Zəngəzur dəhlizinin işə düşməsi ilə birbaşa bağlıdır. Layihə muxtar respublikaya yeni investisiya axını cəlb etməklə yerli büdcənin gəlirlərini artıracaq və əhalinin rifah halını əhəmiyyətli dərəcədə yüksəldəcək.

Azərbaycanın tranzit potensialının artırılmasında Zəngəzur dəhlizi müstəsna əhəmiyyət daşıyır. Bu xətt təkcə regional əlaqələri gücləndirməyəcək, həm də Avrasiya materikini birləşdirən əsas logistik həlqə olacaq. Azərbaycanın müəllifi olduğu qlobal layihələr bu gün Avropa, Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiyanı vahid iqtisadi platformada birləşdirən nəhəng bir əməkdaşlıq platformasının bünövrəsini qoyub. Bu tərəfdaşlıq formatı geniş bir arealı əhatə edir və yalnız tranzit sahəsi ilə məhdudlaşmır. Avropa ilə Asiyanı yaxınlaşdıracaq bu unikal marşrut qitənin nəqliyyat xəritəsini yenidən formalaşdıracaq və dövlətlərarası ticarət dövriyyəsini sürətləndirəcək. Layihədə iştirak edən hər bir ölkə öz tranzit imkanlarını artıraraq dünya iqtisadi sisteminə daha səmərəli inteqrasiya edəcək. Bu cür strateji layihələr Azərbaycanı Avrasiyanın əsas nəqliyyat mərkəzinə çevirir, ölkəmizin geoiqtisadi potensialını və beynəlxalq arenadakı statusunu daha da möhkəmləndirir. Nəticə etibarilə, Bakının dürüst tərəfdaşlıq və etibarlılıq prinsiplərinə söykənən xarici siyasəti ölkəmizə dünya miqyasında böyük nüfuz qazandırıb. IV Şuşa Qlobal Media Forumu da Azərbaycanın beynəlxalq miqyasda artan çəkisini, reputasiyasını və dövlətimizin başçısının müasir dövrün uzaqgörən liderlərindən biri olduğunu növbəti dəfə bütün dünyaya nümayiş etdirdi.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini*



# Şuşa Qlobal Media Forumu:

# beynəlxalq sülh və faydalı əməkdaşlığa çağırış tribunası




Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra ölkəmizdə bütün sahələrlə yanaşı, media da yeni inkişaf və beynəlxalq inteqrasiya mərhələsinə qədəm qoyub. Milli jurnalistikamız 44 günlük Vətən müharibəsində informasiya cəbhəsində nümayiş etdirdiyi peşəkarlıqla mühüm sınaqdan çıxaraq daha da möhkəmlənib, yeni keyfiyyətlər qazanıb və beynəlxalq informasiya məkanında mövqeyini gücləndirib. Məhz bu yeni mərhələdə Azərbaycanın informasiya siyasətinin qlobal miqyasda təqdim olunmasına xidmət edən mühüm təşəbbüslərdən biri də artıq ənənəyə çevrilən Şuşa Qlobal Media Forumudur.

Artıq dördüncü dəfə keçirilən Şuşa Qlobal Media Forumu Azərbaycanın media siyasətinin müasir çağırışlara uyğun inkişafının, söz və informasiya mühitinə göstərilən dövlət dəstəyinin bariz ifadəsidir. Eyni zamanda forum müxtəlif ölkələrdən media nümayəndələrini bir araya gətirərək peşəkar əməkdaşlığın genişlənməsinə, dezinformasiyaya qarşı birgə mübarizə mexanizmlərinin müzakirəsinə və qlobal informasiya təhlükəsizliyi ilə bağlı ortaq yanaşmaların formalaşmasına mühüm töhfə verir. Təsadüfi deyil ki, hər il daha çox ölkədən media nümayəndəsinin tədbirə qatılması forumun beynəlxalq nüfuzunun yüksəldiyini, burada müzakirə olunan məsələlərin aktuallığını və Azərbaycanın bu sahədə irəli sürdüyü təşəbbüslərə göstərilən etimadı bir daha təsdiqləyir.

İyulun 13-də işə başlayan IV Şuşa Qlobal Media Forumunda 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndəsi, 60-dan artıq media qurumu, habelə bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisat təmsil olunurdu. Bu geniş iştirak forumun beynəlxalq nüfuzunun ildən-ilə artdığını, Şuşanın isə qlobal media əməkdaşlığının mühüm mərkəzlərindən birinə çevrildiyini bir daha nümayiş etdirir.

“Sülhün təşviqində medianın missiyası: həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusunda keçirilən forum çərçivəsində panel iclasları, interaktiv sessiyalar və ikitərəfli görüşlər təşkil olundu. Müzakirələrin əsas mövzuları sırasında medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu və ictimai etimadın bərpası, dezinformasiya ilə mübarizədə beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası, məsuliyyətli jurnalistika, informasiya təhlükəsizliyi və yeni media texnologiyalarının inkişaf perspektivləri yer aldı.

Hər il olduğu kimi, bu il də Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edib, forum iştirakçılarının suallarını cavablandıraraq qlobal gündəmdə duran mühüm məsələlərə dair ətraflı fikirlərini bölüşüb. Dövlət başçısına ünvanlanan suallar, əsasən, Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı vəziyyəti, Azərbaycan-ABŞ əlaqələrinin inkişaf perspektivləri, Cənubi Qafqazda regional əməkdaşlığın gələcək istiqamətləri, Zəngəzur dəhlizi layihəsinin icrası, eləcə də beynəlxalq gündəmdə mühüm yer tutan digər aktual mövzuları əhatə edib. Prezident qlobal siyasi proseslər, bəzi ölkələrdə azsaylı xalqlara qarşı ayrı-seçkilik halları, Fransanın neokolonial siyasətinin nəticələri, beynəlxalq münasibətlər sistemində müşahidə olunan çağırışlar, dünyada davam edən müharibə və münaqişələr, o cümlədən Rusiya-Ukrayna müharibəsi ilə bağlı mövqeyini açıqlayaraq mühüm siyasi mesajlar verib.

## Forumun strateji mesajı: Cənubi Qafqazda davamlı sülh və təhlükəsizlik perspektivi

IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyevlə media nümayəndələri arasında əsas müzakirə mövzularından biri Cənubi Qafqazda sülh, təhlükəsizlik və yeni əməkdaşlıq perspektivləri olub. Dövlətimizin başçısı Azərbaycanın bölgədə dayanıqlı sülhün, sabitliyin və qarşılıqlı faydalı əməkdaşlığın qətiyyətli tərəfdarı olduğunu vurğulayaraq ölkəmizin bu istiqamətdə nümayiş etdirdiyi ardıcıl, prinsipial və konstruktiv mövqeni bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb.

Bu yanaşma fonunda son bir ildə Azərbaycan-ABŞ münasibətlərində müşahidə olunan müsbət dinamika xüsusi diqqət çəkir. Ötən il avqustun 8-də Vaşinqtonda keçirilən sammitdən sonra ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Siyasi dialoqun intensivləşməsi, iqtisadi və enerji sahələrində əməkdaşlığın genişlənməsi, regional təhlükəsizlik məsələlərində qarşılıqlı anlaşmanın möhkəmlənməsi tərəflər arasında strateji tərəfdaşlığın daha da dərinləşdiyini göstərir. Paralel olaraq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunan irəliləyişlər, sülh gündəliyinin ardıcıl şəkildə təşviqi və regionda kommunikasiyaların bərpasına yönəlmiş təşəbbüslər də Vaşinqtonun dəstəklədiyi əsas istiqamətlər sırasında yer alır.

Yeni geosiyasi reallıqlar fonunda uzun illər Azərbaycan-ABŞ münasibətlərində müzakirə mövzusu olmuş ABŞ Konqresinin qəbul etdiyi Azadlığa Dəstək Aktına 907-ci düzəliş də əvvəlki aktuallığını əhəmiyyətli dərəcədə itirib. Regionda sülh prosesinin irəliləməsi, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atdığı qətiyyətli addımlar, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası və iqtisadi əməkdaşlıq imkanlarının genişlənməsi bu məhdudiyyətin aradan qaldırılmasının zəruriliyini daha da artırır. Belə bir qərar yalnız iki ölkə arasında qarşılıqlı etimadın möhkəmlənməsinə deyil, həm də strateji tərəfdaşlığın dərinləşməsinə və yeni əməkdaşlıq imkanlarının yaranmasına mühüm töhfə verə bilər.

Regional sabitliyin qorunması, terrorizmlə mübarizə, enerji və nəqliyyat infrastrukturunun təhlükəsizliyinin təmin olunması, eləcə də yeni qlobal və regional çağırışlara qarşı birgə fəaliyyət tərəflərin ortaq maraqlarını daha da yaxınlaşdırır və əməkdaşlığın strateji xarakterini gücləndirir.

Bütün bunların əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə həyata keçirdiyi balanslaşdırılmış, çoxşaxəli və müstəqil xarici siyasət dayanır. Məhz bu siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib, regional proseslərə təsir imkanları genişlənib, enerji və nəqliyyat təhlükəsizliyinə verdiyi töhfələr artıb. Eyni zamanda Azərbaycanın müxtəlif beynəlxalq platformalarda etibarlı və məsuliyyətli tərəfdaş kimi çıxış etməsi onun qlobal siyasi və iqtisadi sistemdə mövqeyini daha da möhkəmləndirib.

Prezident İlham Əliyev forumda media nümayəndəsinin sualını cavablandırarkən Azərbaycan-ABŞ münasibətlərinin tarixində ən yüksək inkişaf mərhələsinə çatdığını vurğulayaraq bildirib: ***“Ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, Vitse-prezident Cey. Di. Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı Vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik”.***

Cənubi Qafqazda davamlı sülh və əməkdaşlığın mühüm amillərindən biri olan Azərbaycan-Ermənistan münasibətlərinə gəldikdə isə Vaşinqtonda sülh sazişinin paraflanmasından sonra münasibətlərin normallaşdırılması istiqamətində mühüm irəliləyişlər müşahidə olunur. Azərbaycanın nümayiş etdirdiyi siyasi iradə və ardıcıl diplomatik xətt regionda dayanıqlı sülhün təmin edilməsi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradıb.

Bu mərhələdə siyasi dialoqla yanaşı, iqtisadi əməkdaşlığın formalaşması da diqqətçəkən istiqamətlərdən biridir. Azərbaycanın birtərəfli qaydada Ermənistana tətbiq etdiyi bütün tranzit məhdudiyyətlərini aradan qaldırması, davamlı olaraq neft məhsullarını bu ölkəyə göndərməsi münasibətlərin praktik müstəviyə keçməsinin ilk nümunələrindən biri kimi qiymətləndirilə bilər. Bu addım təkcə iqtisadi əlaqələrin inkişafına deyil, həm də tərəflər arasında etimadın möhkəmlənməsinə və uzunmüddətli sabitliyin təmin olunmasına xidmət edir. Beynəlxalq təcrübə də göstərir ki, iqtisadi inteqrasiya münaqişədən sonrakı dövrdə davamlı sülhün möhkəmlənməsinin əsas amillərindən biridir.

Sülh prosesinin yaratdığı yeni reallıq regionun nəqliyyat-kommunikasiya layihələrinin də aktuallaşmasına səbəb olub. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində atılan addımlar Cənubi Qafqazın geoiqtisadi əhəmiyyətini daha da artırır. Layihənin həyata keçirilməsi Azərbaycanın nəqliyyat imkanlarını genişləndirməklə yanaşı, regionu Şərq-Qərb və Şimal-Cənub Beynəlxalq Nəqliyyat marşrutlarının mühüm qovşaqlarından birinə çevirəcək. Bu isə ticarət dövriyyəsinin artmasına, logistika imkanlarının genişlənməsinə və regional iqtisadi inteqrasiyanın dərinləşməsinə əlverişli zəmin yaradacaq.

Bu kontekstdə Tramp administrasiyasının sülh prosesinə verdiyi siyasi dəstək də mühüm amillərdən biri kimi qiymətləndirilir. Vaşinqtonun vasitəçilik təşəbbüsləri və tərəflər arasında dialoqun təşviqi sülh gündəliyinin irəliləməsinə əlavə impuls verib. Beləliklə, Azərbaycan-Ermənistan münasibətlərində formalaşan yeni mərhələ təkcə ikitərəfli əlaqələrin inkişafı baxımından deyil, bütövlükdə, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və regionun beynəlxalq nəqliyyat-logistika sistemində rolunun artırılması baxımından da strateji əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda media nümayəndəsinin sualına cavabında bu məqama da xüsusi toxundu, Zəngəzur dəhlizi layihəsinin regionun nəqliyyat bağlılığı xəritəsini tamamilə dəyişəcəyini, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəyini diqqətə çatdırdı: ***“Bu gün isə Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması yeni imkanlar açır. Hazırda Prezident Tramp Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizə öz adını verib – TRIPP. Bizdə olan məlumata görə, layihə çərçivəsində praktiki işlərə, ümid edirik ki, artıq bu il başlanılacaq. Bu layihə regionun nəqliyyat bağlılığı xəritəsini tamamilə dəyişəcək, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək”.***

# Prezident İlham ƏLİYEV:

*“Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir. Forumun ideyası maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarətdir. Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman, bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır. Birincisi, hər dəfə, hər il Forumun mövzusu sadəcə cari çağırışları əks etdirir. İkincisi, mühit çox mehriban, çox müsbətdir və müxtəlif mediadan olan bir çox insanlar, əminəm ki, Şuşada görüşlərdən sonra yaxın dostlara çevrilirlər. Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir.”*

## Azərbaycan əməkdaşlıq və tərəfdaşlıq siyasətini gücləndirir

Müasir geosiyasi reallıqlar fonunda dövlətlərarası münasibətlərdə əməkdaşlıq və tərəfdaşlıq amili getdikcə daha böyük əhəmiyyət qazanır. Bu baxımdan, Azərbaycan həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursu ilə həm regionda, həm də beynəlxalq müstəvidə etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirir. IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin beynəlxalq münasibətlər, regional təhlükəsizlik və əməkdaşlıq perspektivləri ilə bağlı səsləndirdiyi fikirlər də ölkəmizin xarici siyasət prioritetlərini və qlobal proseslərdə artan rolunu bir daha nümayiş etdirdi.

Forumda dövlət başçısının toxunduğu mühüm mövzulardan biri Azərbaycan-Türkiyə münasibətləri idi. Bu gün iki ölkə arasında strateji müttəfiqlik artıq ikitərəfli əməkdaşlıq çərçivəsini aşaraq regionun təhlükəsizlik arxitekturasının əsas elementlərindən birinə çevrilib. Şuşa Bəyannaməsi ilə rəsmiləşdirilən müttəfiqlik münasibətləri son illər siyasi, iqtisadi, enerji, müdafiə və nəqliyyat sahələrində daha da dərinləşib. Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi layihələr yalnız iki ölkənin inkişafına deyil, bütövlükdə, regionun iqtisadi inteqrasiyasına və kommunikasiya imkanlarının genişlənməsinə də mühüm töhfə verir. Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP və TAP layihələri bu əməkdaşlığın uğurlu nəticələrinin bariz nümunələridir. Bu gün Azərbaycan-Türkiyə münasibətləri regional əməkdaşlıq modelinin ən uğurlu nümunələrindən biri kimi qəbul olunur.

Ölkəmiz hər zaman regionda sülhün, təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təmin olunmasına üstünlük verib. Gürcüstanla strateji tərəfdaşlıq münasibətləri enerji və nəqliyyat sahəsində həyata keçirilən iri layihələrlə daha da möhkəmlənib. Bu tərəfdaşlıq, eyni zamanda Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafına mühüm töhfə verir.

Rusiya ilə münasibətlərdə qarşılıqlı maraqlara və mehriban qonşuluq prinsiplərinə əsaslanan əməkdaşlıq, İranla əlaqələrdə isə sərhədyanı bölgələrin inkişafı, nəqliyyat və iqtisadi sahələrdə qarşılıqlı faydalı layihələr xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın Pakistanla strateji tərəfdaşlığı da yüksələn xətt üzrə inkişaf edir. Siyasi, iqtisadi, müdafiə və enerji sahələrində əməkdaşlığın genişlənməsi, qarşılıqlı dəstək və həmrəylik bu münasibətlərin əsasını təşkil edir. Bununla yanaşı, son illərdə Mərkəzi Asiya dövlətləri ilə əlaqələr də yeni dinamika qazanıb. Xüsusilə nəqliyyat-kommunikasiya, enerji və ticarət sahələrində əməkdaşlıq getdikcə genişlənir.

Forumda Avropa təsisatları ilə münasibətlərə dair səsləndirilən fikirlər də diqqət çəkdi. Azərbaycan qarşılıqlı hörmət, dövlətlərin suverenliyinə ehtiram və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan əməkdaşlığın tərəfdarı olduğunu bir daha nümayiş etdirdi.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı da ölkəmizin qlobal proseslərdə artan rolunun mühüm göstəricisidir. Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda fəal iştirak edən Azərbaycan qlobal gündəliyin aktual məsələləri üzrə mühüm təşəbbüslərlə çıxış edir. Enerji təhlükəsizliyi, iqlim dəyişmələri, humanitar məsələlər və mədəniyyətlərarası dialoq sahələrində ölkəmizin mövqeyi beynəlxalq tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilir.

Prezident İlham Əliyevin forum çərçivəsində səsləndirdiyi fikirlər bir daha təsdiqlədi ki, Azərbaycan son illərdə formalaşdırdığı müstəqil və çoxşaxəli xarici siyasət kursunu yeni geosiyasi reallıqlar fonunda ardıcıl şəkildə inkişaf etdirir.

Beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətinin artdığı müasir dövrdə Azərbaycanın geostrateji mövqeyi xüsusi önəm daşıyır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkəmiz həyata keçirdiyi iri infrastruktur layihələri sayəsində Avrasiyanın mühüm logistika mərkəzlərindən birinə çevrilməkdədir. Orta Dəhliz üzrə yükdaşımaların artması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının genişləndirilməsi və Xəzər hövzəsində yükdaşımaların intensivləşdirilməsi Azərbaycanın tranzit potensialını daha da gücləndirir.

Eyni zamanda ölkəmizin təşəbbüsü ilə irəli sürülən regional kommunikasiya layihələri yeni əməkdaşlıq imkanları formalaşdırır. Zəngəzur dəhlizi perspektivi, Şərq-Qərb nəqliyyat xəttinin genişləndirilməsi və regional bağlantıların bərpası Cənubi Qafqazda iqtisadi inteqrasiyanın dərinləşməsinə, regionun geoiqtisadi əhəmiyyətinin artmasına xidmət edir.

Ümumilikdə, Şuşa Qlobal Media Forumu Azərbaycanın regional və qlobal miqyasda həyata keçirdiyi əməkdaşlıq siyasətinin əsas istiqamətlərinin təqdim olunduğu nüfuzlu beynəlxalq platforma kimi öz mövqeyini daha da möhkəmləndirir. Forum çərçivəsində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər göstərir ki, Azərbaycan dəyişən dünya nizamında milli maraqlarını qətiyyətlə qorumaqla yanaşı, sülhün, sabitliyin və qarşılıqlı faydalı tərəfdaşlığın möhkəmlənməsinə xidmət edən təşəbbüslərlə çıxış edir.

Respublikamız enerji və nəqliyyat layihələri ilə yanaşı, siyasi dialoq, regional inteqrasiya və çoxtərəfli əməkdaşlıq təşəbbüsləri vasitəsilə də Avrasiyanın mühüm bağlantı mərkəzlərindən biri kimi mövqeyini gücləndirir.

Şuşa Qlobal Media Forumu isə bu baxımdan, təkcə media nümayəndələrinin görüş platforması deyil. O, Azərbaycanın dünyaya ünvanladığı sülh, əməkdaşlıq və inkişaf mesajlarının beynəlxalq auditoriyaya çatdırıldığı, yeni geosiyasi reallıqlar fonunda ölkəmizin baxışlarının təqdim edildiyi nüfuzlu beynəlxalq tribuna kimi ildən-ilə öz əhəmiyyətini artırır.

✍ **Nail ƏSGƏROV**



# Ali Məclisin növbədənkənar sessiyası başa çatıb



İyulun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının sonuncu iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, bu gün Azərbaycanın müasir dövlətçilik tarixində yeni inkişaf mərhələsinin başlanğıcını qoyan əlamətdar bir gündür. 14 iyul 1969-cu il Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə ölkəmizin müstəqil və qüdrətli dövlətçilik təməlləri atıldı. Məhz həmin dövrdə Ulu Öndər tərəfindən formalaşdırılan güclü iqtisadi, hərbi və kadr potensialı, həyata keçirilən məqsədyönlü siyasət 1993-cü ildə dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşən zaman ölkənin xilasında mühüm rol oynadı və Azərbaycanın davamlı tərəqqisinin əsasını qoydu.

Qeyd olunub ki, bu gün qürurla deyə bilərik ki, ölkəmiz Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, dövlətimizin bütün sahələrdə əldə etdiyi uğurlar Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi, 1969-cu ilin 14 iyulundan Ümummilli Lider Heydər Əliyevin başlatdığı inkişaf və dövlətçilik strategiyasının uğurlu nəticəsidir. Elə buna görə də 14 iyul müasir Azərbaycan tarixinin əlamətdar günlərindən biri kimi qiymətləndirilir və hər zaman xalqımızın milli yaddaşında xüsusi ehtiramla anılır.

Deputatlardan Zeynəb Quliyeva, Aynur Babayeva, Şəhla Əhmədova və Sevinc Həsənova çıxış ediblər. Çıxışlarda



Ümummilli Lider Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərliyə gəlməsinin milli dövlətçilik tariximizdəki müstəsna əhəmiyyətindən, Naxçıvana qayıdışının ölkəmizin müstəqillik və qurtuluş yolunda həlledici rolundan bəhs edilib, Ulu Öndərin siyasi kursunun Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini qeyd edib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramov məlumat verib, komitənin rəyini diqqətə çatdırıb, qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – üçüncü oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi ilə bağlı Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. Ardınca qanun səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran sonuncu məsələ – üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi ilə bağlı Hüquq siyasəti komitəsinin sədri tərəfindən məlumat verilib, komitənin rəyi diqqətə çatdırılıb.

Qanun layihəsi ilə bağlı deputatlardan Həbibə Allahverdiyeva və Mahir İsmayılov çıxış ediblər. Ardınca qanun səsə qoyularaq qəbul olunduqdan sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin növbədənkənar sessiyası başa çatıb.

## Ali Məclisin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib



İyulun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin üçüncü oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda gündəlikdə duran məsələlərlə bağlı komitə sədri məlumat verdikdən sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə təqdim olunub.

## Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib



İyulun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Mübariz Bayramov gündəlikdə duran məsələnin üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi olduğunu bildirib.

İclasda Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elvin Əlimərdanov qanun layihəsi ilə bağlı məlumat verib.

Sonra “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Türkiyənin Demokratiya və Milli Birlik Günü qeyd edilib



Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda Türkiyənin 15 iyul – Demokratiya və Milli Birlik Gününün 10-cu ildönümü ilə bağlı tədbir keçirilib.

Tədbirdə əvvəlcə 2020-ci ildə 44 günlük Vətən müharibəsində və qardaş ölkədə 2016-cı il iyulun 15-də baş verən dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Şəhidlərin ruhuna dualar oxunub.

Tədbirdə dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxışında vurğulayıb ki, 2016-cı il iyulun 15-də baş verən hadisə zamanı Türkiyə 251 şəhid verib: “Dövlət



çevrilişi cəhdindən artıq 10 il ötür. Türkiyənin dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün hakimiyyət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində dövlət çevrilişi cəhdinin qarşısı alınıb”.

Asip Kaya qeyd edib ki, Azərbaycan hadisənin baş verdiyi andan qardaş Türkiyənin yanında olub, öz dəstəyini əsirgəməyib. 15 iyulda Azərbaycanın göstərdiyi dəstək iki ölkənin bir-birinə qardaşlığının nümunəsidir.

Tədbirdə 15 iyul hadisələrini əks etdirən videoçarxlar nümayiş olunub.

Tədbirdə çıxış edənlər Türkiyə dövlətinin 10 il öncə üzləşdiyi hadisə barədə danışıb, keçirilən tədbirin əsas məqsədinin dövlət çevrilişinin necə baş verdiyini dərindən öyrənmək, səbəbkarların əməllərini ortaya çıxararaq gələcək nəsillərə düzgün şəkildə çatdırmaqdan ibarət olduğunu qeyd ediblər.

Sonda 15 iyul Türkiyənin Demokratiya və Milli Birlik Günü ilə bağlı fotolara baxış olub.

## Çinin daha bir nüfuzlu universiteti arasında anlaşma memorandumu imzalanıb



İyulun 13-də Naxçıvan Dövlət Universiteti ilə Çin Xalq Respublikasının Urumçi Peşə Universiteti (Urumqi Vocational University) arasında təhsil, elm və innovasiya sahələrində əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumu onlayn formatda imzalanıb.

Memoranduma əsasən tərəflər birgə elmi tədqiqatların aparılması, müəllim, tələbə və inzibati heyət mübadiləsi, eləcə də logistika, turizm, süni intellekt, rəqəmsal media, incəsənət, tibb, yeni enerji və istehsal sahələrində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər. Sənəd, həmçinin birgə akademik proqramların, ikili diplom layihələrinin, “3+1” modeli üzrə bakalavr proqramlarının hazırlanmasını, yay məktəblərinin, təcrübə proqramlarının, seminar və konfransların təşkili, Süni İntellekt Mərkəzinin yaradılması, Çin dili və mədəniyyəti üzrə proqramların hazırlanmasını da əhatə edir.

Urumçi Peşə Universitetinin prezidenti Tang Xiaobing imzalanan sənədin iki universitet arasında uzunmüddətli əməkdaşlığın əsasını qoyduğunu bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev isə qeyd edib ki, cari ilin aprelində universitet nümayəndə heyətinin Urumçiyə səfəri zamanı aparılan müzakirələr bu əməkdaşlığın formalaşmasına zəmin yaradıb. Rektor memorandumu iki universitet arasında yeni əməkdaşlıq mərhələsinin başlanğıcı kimi dəyərləndirib.

Qeyd edək ki, anlaşma memorandumu qardaşlaşmış Naxçıvan və Urumçi şəhərləri arasında əlaqələrin daha da inkişafına töhfə verəcək. Sonda onlayn qrup fotosu çəkdirilib.

# “Əkinçi”dən Qlobal Media Forumuna uzanan 151 illik yol

151 il bundan əvvəl tarixin dolaylarında taleyi naməlum qalan Azərbaycana, hər şeydən əvvəl, söz-azad fikir və bu fikri formalaşdıran ziyalılar lazım idi. Xalqı cəhalət yuxusundan oyatmaq, maarif işığını şölələndirmək üçün, ilk növbədə, əkilən toxumlar öz bəhrəsini verməli, sonrakı “əkinçilərə” mayak olmalı idi. Çarizm siyasətinin hökm sürdüyü bir zamanda bütün çətinliklərə rəğmən “Əkinçi” ilə meydana çıxan Həsən bəy Zərdabi milli mətbuatın əsasını qoymaqla yanaşı, xalqın maariflənməsi və milli şüurun formalaşması istiqamətində yeni bir mərhələnin başlanğıcını qoydu. “Əkinçi” yalnız qəzet deyil, həm də milli oyanış məktəbi idi. Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Əsgər ağa Gorani kimi görkəmli ziyalıların ideyaları bu məktəbin formalaşmasına mühüm töhfə verdi. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı nəşr olunan “Əkinçi” qəzeti milli mətbuat tariximizdə silinməz iz buraxdı. Sözün qüdrətinə sonsuz inamı ilə milli mətbuatın əsasını qoyan Həsən bəy Zərdabinin “Heç olmaz ki, doğru söz yerdə qalsın” çağırışı isə Azərbaycan jurnalistikasının peşə prinsipinə çevrildi.

“Əkinçi”nin açdığı yol sonrakı illərdə “Ziya”, “Kəşkül”, “Həyat”, “Füyuzat”, “Açıq söz” kimi mətbuat orqanlarının yaranmasına zəmin yaratdı. Baş redaktoru Cəlil Məmmədquluzadənin “Təbiət özü yaratdı, zəmanə özü yaratdı”, – dediyi “Molla Nəsrəddin” jurnalı isə satirik publisistikanın ən parlaq nümunəsi kimi milli düşüncənin inkişafında mühüm rol oynadı. Xalqın dilinə yaxın “Molla Nəsrəddin” təhdidlərə, hədələrə sinə gərərək 25 il fasilələrlə olsa belə nəşr olundu. “Bəhlul”, “Babayi-Əmir”, “Zənbur”, “Arı”, “Kəlniyyət”, “Lək-lək” və başqa jurnallar bu məktəbin layiqli davamçıları oldu.

### Millət yoludur, haqq yoludur tutduğumuz yol

1918-ci il Azərbaycanın müstəqilliyi dövrü milli mətbuat tarixi üçün də xüsusi mərhələ təşkil edir. Tarixi mənbələr göstərir ki, əgər əvvəl 40 adda qəzet çıxırdısa, 23 aylıq cümhuriyyət zamanı qəzetlərin sayı daha çox olub. Bakının erməni-bolşevik işğalından azad edilməsi xəbərini “Azərbaycan” qəzeti verib. Gəncədə ilk dörd sayı çıxmış “Azərbaycan” qəzeti sonra Bakıya köçürülüb və 1920-ci ilin aprel işğalınadək nəşr olunub. Həmin dövrdə “İttihad”, “Yeni həyat”, “İstiqlal” kimi qəzetlər də milli istiqlal ideyalarının təbliğində mühüm rol oynayırdı. Tofiq Fikrətin *“Millət yoludur, haqq yoludur tutduğumuz yol”* misraları isə “İstiqlal” qəzetinin epiqrafı idi.

Həmin dövrdə nəşr olunan qəzetlər öz ətrafına Əlimərdan bəy Topçubaşov, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları, Şəfi bəy Rüstəmbəyli, Həsən bəy Ağayev, Seyid Hüseyn, Mirzə Bala Məhəmmədzadə, Əhməd Cavad, Əli Yusif, Cəfər Cabbarlı kimi ziyalıları toplaya bilmişdi.




### Milli dəyərlərin qorunmasında mətbuatın rolu

Sovet dövründə mətbuat ideoloji nəzarət altında olsa da, milli dayaqlarını tamamən itirməmişdi. Ana dilinin saflığının qorunmasında, milli dəyərlərin yaşadılmasında, ədəbiyyatın, mədəniyyətin inkişafında mətbuatın da öz payı vardı. Həmin dövrdə nəşr olunan “Azərbaycan”, “Ədəbiyyat və incəsənət”, “Ulduz”, “Elm və həyat” kimi qəzet və jurnallar dövrün aparıcı mətbu orqanları sırasında idi. 1921-ci ilin noyabr ayından işıq üzü görən “Şərq qapısı” qəzeti ötən əsrdə Naxçıvanın ictimai-siyasi, mədəni və ədəbi həyatının salnaməsini yaradan əsas mətbuat orqanlarından biri kimi formalaşdı. Müxtəlif tarixi mərhələlərdən keçən qəzet yalnız bölgənin deyil, bütövlükdə, Azərbaycan mətbuatının tarixində özünəməxsus yer tutdu. 70-80-ci illərdə paytaxtda nəşr olunan qəzetlər kimi “Şərq qapısı”nın da böyük formatda nəşri təmin edildi. 50 illik yubileyində qəzet “Şərəf nişanı” ordeni ilə təltif olundu.

### Birlik və demokratiya uğrunda

70 illik sovetlərin əsarət zəncirini qıran Azərbaycan müstəqilliyini elan etsə də, ölkə daxilindəki hərc-mərclik, özbaşınalıq istər-istəməz bütün sahələrə öz təsirini göstərirdi. Həmin dövrdə milli azadlıq hərəkatından ruhlanan yeni qəzetlər meydana gəlməyə başlamışdı. Lakin söz və mətbuat azadlığını təmin edən qanunvericilik bazası olmadığından həmin müstəqil qəzetlərin də fəaliyyətinə qeyri-qanuni müdaxilələr olurdu.

1990-cı ildə “Şərq qapısı” qəzeti tarixi addım atır. 20 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Bakıda baş vermiş qanlı hadisələrə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul edir. “Şərq qapısı” qəzeti həmin qərarı çap etməklə Naxçıvan Muxtar Respublikasının ilk azad mətbuat orqanı funksiyasını həyata keçirir. 1990-cı ilin yanvar ayında “Şərq qapısı” qəzetinin 8 sayı o zaman bütün qəzetlərdə məcburi şəkildə yazılan “Bütün ölkələrin proletarları, birləşin!” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışlı başlıqla çap olunur. Tədqiqatçılar bu addımı təkcə “Şərq qapısı” qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisə kimi dəyərləndirirlər.

### Müstəqillik illərinin bəhrələri: azad sözə açılan qapı

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mətbuatda da ciddi dönüş nöqtəsi yarandı. Milli mətbuatı yaxından izləyən və daim dəstək olan Ulu Öndər Heydər Əliyev azad sözə geniş meydan verdi. Qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması bu istiqamətdə verilmiş fərman və sərəncamlar milli mətbuatın qarşısında geniş üfüqlər açdı. Azərbaycan 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququ təmin edildi. Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidməti KİV üzərində senzuranın ləğv edilməsi ilə bağlı verdiyi fərman oldu. Belə ki, 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman azad sözün, milli mətbuatın inkişafına xidmət edən mühüm addım oldu. Azərbaycanın iqtisadi imkanlarının zəif olduğu vaxtlarda Ulu Öndər diqqətini əsirgəmir, qəzetlərə maddi-texniki dəstəyin göstərilməsi təşəbbüsü ilə çıxış edirdi. Hələ 2000-ci ildə Ulu Öndərin müvafiq Sərəncamı ilə Azərbaycan milli mətbuatının yaranmasının 125 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Ulu Öndər həmin tədbirdə dərinməzmunlu nitqi ilə mətbuatımızın qarşısında duran vəzifələri müəyyən etdi. Dahi şəxsiyyətin mətbuata bu cür dost, səmimi münasibəti jurnalistlər tərəfindən böyük rəğbətlə qarşılandı. Ulu Öndər Heydər Əliyev 2002-ci ildə “Jurnalistlərin dostu” mükafatına layiq görüldü.

### “Əkinçi”dən sülhün təşviqinə

Ümummilli Liderin müəyyənləşdirdiyi media siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnformasiya təhlükəsizliyinin möhkəmləndirilməsi rəqəmsal transformasiya, media subyektlərinin iqtisadi dayanıqlılığının artırılması və peşəkar jurnalistikanın təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilir.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması haqqında Prezident İlham Əliyevin Sərəncamı da milli mətbuatın keçdiyi tarixi yola verilən yüksək qiymətin və jurnalist əməyinə göstərilən dövlət qayğısının növbəti təzahürü idi.

Ötən dövrdə “Media haqqında” Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, jurnalistlərin fəxri adlarla təltif edilməsi mətbuata olan dövlət qayğısının bariz nümunəsidir. Yaradılan imkanlardan səmərəli istifadə edən media qurumları ölkədə baş verən ictimai-siyasi, sosial-mədəni tədbirləri izləyir, günün salnaməsini yaradırlar. Ölkə mediası 44 günlük Vətən müharibəsində operativ, peşəkar və obyektiv fəaliyyəti ilə zəfər salnaməsini yazaraq Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı. Cəmiyyətdə birlik ruhunun möhkəmlənməsinə və dezinformasiyaya qarşı mübarizəyə mühüm töhfə verdi. Bu prosesə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin beynəlxalq media orqanlarına verdiyi çoxsaylı müsahibələr xüsusi dəstək oldu.

### Şuşadan dünyaya uzanan media dialoqu

Artıq 4-cü ildir ki, dünyanın müxtəlif ölkələrindən media nümayəndələrinin, beynəlxalq təşkilat və təsisatların da iştirakı ilə Şuşa Qlobal Media Forumu keçirilir. 2026-cı il iyulun 13-də “Sülhün təşviqində medianın missiyası: həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumunda ölkə başçısının açılış mərasimində iştirakı və media nümayəndələri ilə görüşü, onların suallarını cavablandırması tədbirin mahiyyətini bir daha göstərir. Şuşa Forumu bu il də informasiya təhlükəsizliyi, media məsuliyyəti, dezinformasiyaya qarşı mübarizə və ictimai etimadın möhkəmləndirilməsi kimi aktual məsələlərin müzakirə olunduğu mühüm platformaya çevrildi.

Azərbaycan milli mətbuatının keçdiyi inkişaf yolu göstərir ki, dəyişən yalnız dövrün tələbləri və informasiyanın yayılma vasitələridir. Dəyişməyən isə milli mətbuatın əsas missiyası – cəmiyyətin düzgün məlumatlandırılması, milli dəyərlərin qorunması, dövlətçiliyin möhkəmləndirilməsi və həqiqətin müdafiəsidir.

**Ruhiyyə RƏSULOVA**




**Elnurə CƏFƏROVA**

# Əsrlərin dalğasından gələn səsim: mən “Şərq qapısı”yam

*Zamanın yaddaş qatlarını vərəqləyərək keçdiyim yola baxıram. Mən adi bir kağız parçası, mürəkkəb izlərindən ibarət mətbuat orqanı deyiləm. Mən Naxçıvanın döyünən ürəyi, tarixin canlı şahidi, min bir sınaqdan keçmiş ulu səsiyəm. 1921-ci il noyabrın 9-da ilk dəfə oxucularımın görüşünə gələndə içimdə böyük bir ümid, gələcəyə inam vardı. O zaman “Cavanlar həyatı” qoymuşdular. Gənc idim, qaynar idim, yeniliyin və gələcəyin sorağında idim. Yolum hamar olmadı. Zamanın sərt rüzgarları məni müxtəlif adların axarına saldı. Həmin ilin dekabrından bir müddət “Füqəra səsi” oldum, məzlumların, zəhmətkeşlərin haqq səsini dünyaya çatdırdım. Sonralar ulu Şərqin dünyaya açılan pəncərəsinə çevrildim, nurlu sabahlara boylanan baxışı oldum. Mənə “Şərq qapısı” dedilər. Dönəmlər dəyişdi, sovet illərində “Sovet Naxçıvanı” kimi addımladım. Amma ruhumdakı milli kimlik, doğma səs heç vaxt itmədi. Nəhayət, 1989-cu ildə yenidən öz əzəli adıma – ruhuma ən yaxın olan o müqəddəs “Şərq qapısı” adına qovuşdum.*

Ötən əsrin yetmişinci illərində artıq mən bütöv bir xalqın tribunasına çevrilmişdim. 1969-cu ildən sonra həyatımda yeni bir yüksəliş mərhələsi başlandı. Mənə göstərilən diqqət və qayğı sayəsində gündəlik, böyük formatda işıq üzü görməyə başladım. Səhifələrim xalqımın milli-mənəvi dəyərləri, qədim mədəniyyəti və şanlı tarixi ilə zənginləşdi, hər sətrimdə milli özünüdərk duyğusu daha da gücləndi.

1990-cı illərin əvvəlləri mənim üçün ən böyük sınaq, həm də şərəf dövrü oldu. Azərbaycanın üzərini qara buludlar alanda, müstəqillik ideyaları ürəklərdə alovlandığı günlərdə mən də meydanda idim. Ümummilli Liderimiz Heydər Əliyevin Moskvadan doğma Naxçıvana qayıdışı mənim də taleyimdə yeni bir səhifə açdı. Həmin çətin illərdə ölkənin yüzlərlə mətbuat orqanı içərisində ilk olaraq səsimi ucaltdım. Vətənin düşdüyü bəlalardan yeganə xilas yolunu böyük dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında gördüm və bunu qorxmadan, cəsarətlə bütün dünyaya bəyan etdim. Muxtar respublikanın taleyin ümidinə buraxıldığı, informasiya blokadasına salındığı o ağır günlərdə həqiqətin səsinə çevrildim, bu blokadanın yarılmasında üzərimə düşən missiyanı məsuliyyətlə yerinə yetirdim.

Böyük rəhbərin 1993-cü ildə yenidən Bakıya, ali siyasi hakimiyyətə qayıtması ilə mənim də yaralarıma məlhəm qoyuldu. Maddi-texniki bazam möhkəmləndirildi, qədim ənənələrim yeni nəfəs qazandı. Ən unudulmaz günlərimdən birini isə 2010-cu ilin iyulunda, milli mətbuatımızın 135 illiyinin qeyd olunduğu o müqəddəs gündə yaşadım. Dövlətin mənə göstərdiyi yüksək etimadın bariz nümunəsi kimi. Redaksiyam üçün müasir bina istifadəyə verildi. Mən ilk dəfə rəngli boyalarla, daha parlaq və daha zəngin tərtibatda oxucularımın görüşünə gəldim.

Bu gün mən əsrlik bir çinar kimi köklərimə bağlıyam. İndi həftədə bir dəfə oxucularımla görüşsəm də, hər nömrəmdə o qədim tarixin nəfəsi, şərəfli yolun qüruru yaşayır. Mən dünənin salnaməsi, bu günün aynası, gələcəyin bələdçisiyəm. Nə qədər ki bu torpaq var, nə qədər ki bu xalq var, mən də yaşayacağam. Çünki mən Naxçıvanın dünyaya açılan “Şərq qapısı”yam.

# “Azərbaycan Mədəniyyəti – 2040”: Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

## Azərbaycan dilinin inkişafının strateji hədəfləri və prioritet istiqamətləri

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının qısa xülasəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılması izah olunur. Konsepsiyanın əsas məqsədi belə şərtləndirilir: “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası (bundan sonra – Konsepsiya) qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir”. Azərbaycan dili xalqımızın milli kimliyinin, tarixi yaddaşının və mədəni irsinin əsas sütunlarından biridir. Müstəqil Azərbaycan Respublikasında dövlət dili kimi Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi və cəmiyyətin bütün sahələrində düzgün istifadəsinin təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan, “Azərbaycan Mədəniyyəti – 2040” strateji baxış sənədində Azərbaycan dili məsələsinə xüsusi yer ayrılmışdır. Bu sənədin 2-ci bəndində Azərbaycan dili ilə bağlı çağırışlar: Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması və digər məsələlər yer alıb. Konsepsiyanın 8.2-ci bölməsi Azərbaycan dilinin inkişafı ilə bağlıdır.*

Azərbaycan dili milli kimliyimizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin əsas dayaqlarından biridir. Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və informasiya mühitinin sürətli inkişafı dil siyasətinin daha sistemli, məqsədyönlü və davamlı şəkildə həyata keçirilməsini zəruri edir. Bu baxımdan, Azərbaycan dilinin funksionallığının artırılması, elmi əsaslarla inkişaf etdirilməsi, təbliği və təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Konsepsiyada Azərbaycan ədəbi dilinin bədii, elmi, publisistik, rəsmi-işgüzar və məişət üslublarında funksional imkanlarının genişləndirilməsi mühüm prioritet hesab olunur. Bu məqsədlə müvafiq dövlət qurumları tərəfindən üslubların elmi əsaslarla araşdırılması, dilin müxtəlif sahələrdə tətbiq imkanlarının təhlili, təhsil müəssisələrində ədəbi dil bacarıqlarının sistemli şəkildə tədrisi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Ümumi təhsil müəssisələrinin Azərbaycan dili dərsliklərində ədəbi dilin funksionallığına dair bilik və bacarıqların şagirdlərə ardıcıl şəkildə aşılanması gənc nəslin dil mədəniyyətinin formalaşmasına xidmət edəcəkdir.

Azərbaycan dilinin tarixi, məzmunu və mədəniyyətin inkişafındakı rolu ilə bağlı elmi tədqiqatların genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Müasir elmi metodların tətbiqi ilə aparılan araşdırmalar Azərbaycan dilinə dair elmi əsərlərin sayının artmasına, tədqiqatların keyfiyyətinin yüksəlməsinə, lüğət ehtiyatının zənginləşdirilməsinə, dilin istifadə arealının genişlənməsinə şərait yaradacaqdır.

Bu tədqiqatların nəticələrinin “e-culture” platformasında, nüfuzlu elmi jurnallarda və mediada yayımlanması, həmçinin ictimai müzakirələrə çıxarılması dil siyasətinin şəffaflığını və effektivliyini artıracaqdır.

Azərbaycan dilində, xüsusilə elmi və publisistik sahədə yeni əsərlərin yaranması və yayılması dilin inkişafında mühüm rol oynayır. Yerli və xarici elm və təhsil müəssisələri ilə dayanıqlı əməkdaşlığın qurulması keyfiyyətli elmi əsərlərin təşviqinə, Azərbaycan dilində yazılmış materialların beynəlxalq səviyyədə tanıdılmasına, milli elmi potensialın gücləndirilməsinə xidmət edəcəkdir.

Azərbaycan dilinin ictimai və rəqəmsal mühitdə istifadəsi ictimai yerlərdə, mediada, rəqəmsal məhsullarda və digər sahələrdə Azərbaycan dilindən istifadənin genişləndirilməsi dil siyasətinin əsas hədəflərindən biridir. Maarifləndirmə mexanizmlərinin hazırlanması və tətbiqi vasitəsilə Azərbaycan dilindən düzgün və səmərəli istifadə təşviq ediləcək, dil mədəniyyəti üzrə ictimai məsuliyyət artırılacaq, rəqəmsal mühitdə ana dilinin mövqeyi möhkəmləndiriləcəkdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycan dilinin gündəlik həyatın bütün sahələrində aparıcı mövqedə olmasını təmin edəcəkdir.




Uzun illərdir, bu sahədə çalışan tədqiqatçı-alim kimi qeyd edim ki, konsepsiyada nəzərdə tutulanAzərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, dialektlərin sinxron və diaxron tədqiqi, dil normalarının təkmilləşdirilməsi istiqamətində aparılan işlər dilin elmi əsaslarla inkişafını təmin edəcəkdir. Bu proses yeni terminlərin formalaşdırılmasına, dil normalarının təkmilləşdirilməsinə, ictimai məlumatlılığın artırılmasına xidmət edəcəkdir.

Tərcümə lüğətlərinin hazırlanması məsələsi də konsepsiyanın əsas istiqamətlərindən biridir. Azərbaycan dilindən BMT-nin əsas dillərinə, türk dillərinə və əksinə tərcümə lüğətlərinin hazırlanması dilin beynəlxalq kommunikasiya imkanlarını genişləndirəcəkdir. Mütəxəssis qruplarının formalaşdırılması və təşkilati işlərin həyata keçirilməsi nəticəsində keyfiyyətli tərcümə lüğətləri hazırlanacaq, bu lüğətlər geniş ictimaiyyət üçün əlçatan olacaqdır. Bu təşəbbüs Azərbaycan dilinin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verəcəkdir.

Konsepsiyanın əsas hədəflərindən biri də dil normalarına nəzarətin gücləndirilməsi məsələsidir. Azərbaycan dili haqqında normativ-hüquqi aktlara və dil normalarına əməl olunmasına nəzarətin effektivliyinin artırılması vacib məsələdir. Bu məqsədlə təhlillər aparılacaq, səmərəli nəzarət mexanizmləri hazırlanacaq, aidiyyəti qurumlara müvafiq təkliflər təqdim ediləcəkdir. Belə ki, 2026-2030-cu illər üçün Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında Azərbaycan Milli Elmlər Akademiyasının da bu sahədə öhdəlikləri müəyyənləşdirilmişdir. Əməli tədbirlər həyata keçirildikdən sonra Azərbaycan dilindən düzgün və standartlara uyğun istifadənin təmin olunması mümkün olacaqdır.

Son olaraq qeyd edək ki, “Azərbaycan Mədəniyyəti – 2040” Sərəncamında Azərbaycan dili yalnız ünsiyyət vasitəsi kimi deyil, milli-mənəvi dəyər, mədəni irs və dövlətçilik rəmzi kimi təqdim olunur.

Azərbaycan dilinin inkişafı üzrə həyata keçirilən sistemli fəaliyyətlər dilin funksionallığının artırılmasına, elmi əsaslarla zənginləşdirilməsinə və cəmiyyətin bütün sahələrində geniş istifadəsinə şərait yaradır. 2026-2040-cı illəri əhatə edən bu strategiya Azərbaycan dilinin həm milli, həm də beynəlxalq səviyyədə mövqeyini gücləndirməyə yönəlmişdir. Dil siyasətinin uğuru dövlət qurumlarının koordinasiyalı fəaliyyəti, elmi ictimaiyyətin fəallığı və cəmiyyətin bu prosesə aktiv cəlb olunması ilə birbaşa bağlıdır. Dilin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi Azərbaycanın mədəni strategiyasının əsas istiqamətlərindən biridir. Bu yanaşma milli kimliyin möhkəmləndirilməsinə, mədəni irsin davamlılığına və cəmiyyətin mənəvi inkişafına mühüm töhfə verir.

**Zülfiyyə İSMAYIL**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Qədim mədəniyyətlərin izi ilə

## *Bülövqaya yaşayış yerində aparılan tədqiqatlar nədən xəbər verir?*



Naxçıvan öz sinəsində yaşı minilliklərlə ölçülən tarixi hifz edən, qoruyan, xarici səyyahları, tarixçi, arxeoloqları özünə məftun edən bəşəriyyətin qədim yaşayış məskənlərindəndir. İllərlə ərazidə arxeoloji qazıntıların aparılmasına, abidələrin öyrənilməsinə rəğmən hələ də Nuhun diyarı Naxçıvan öz qoynunda tarixin dərin qatlarını gizləyir. Bu qatlar açıldıqca yeni faktlar ortaya çıxır, əldə olunan materiallar Naxçıvan tarixini daha da zənginləşdirir. Naxçıvan tarixi ilə bağlı əldə olunan yenilikləri öyrənmək məqsədilə yolumuzu bu dəfə Naxçıvanda aparılan ekspedisiyanın daha bir ünvanına – Bülövqayaya doğru salırıq. Bülövqayaya çatana kimi yolu müşahidə edirik. Babək rayonunun bir neçə kəndindən keçirik. Nəhəcir dağları xüsusilə diqqətimizi cəlb edir. Yaşayış məskənindən görünən uca və əzəmətli bir dağ Əlincə dağının formasını xatırladır. Kim bilir, yolboyu yaşayış məskənlərinə sinəbənd olan bu dağlar hansı tarixi hadisələrə şahidlik edib?! Göynük kəndinə çatmamış sol istiqamətdə yolumuza davam edirik. Təbiət gözəlliklərini ən dərinliklərdə gizlədiyi kimi, deyəsən, tarix də öz varidatını ən dərinliklərə etibar edib.

Bir qədər nahamar yolla hərəkət edən avtomobilimiz, nəhayət, ünvana – 3 ildir ki, arxeoloji tədqiqatların aparıldığı Bülövqayaya yetişir. Müsahibim AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, Naxçıvan Dövlət Universitetinin müəllimi, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyevlə görüşüb həmsöhbət oluruq. Bizi ərazi və gənc arxeoloqlar – Elmar Baxşəliyev və Ziniyət Süleymanova ilə tanış edən arxeoloji ekspedisiyanın rəhbəri Vəli Baxşəliyev suallarımızı cavablandırır.

***– Vəli müəllim, bu günə qədər rəhbərliyinizlə həyata keçirilən ekspedisiyalar Naxçıvan tarixi barədə hansı məlumatları verir?***

– Apardığımız arxeoloji qazıntılar Neolit dövründən başlayaraq Dəmir dövrünə qədər böyük bir dövrü öyrənməyə imkan verir. Tədqiqatlarımız I Kültəpənin Cənubi Qafqazda Neolit dövrünə aid ən qədim yaşayış yeri olduğunu göstərir. Arxeoloji araşdırmalar göstərir ki, Cənubi Azərbaycan, o cümlədən Urmiya hövzəsindəki Neolit və Eneolit abidələrində istifadə olunan obsidianın 95 faizi Naxçıvan yaxınlığındakı Zəngəzur yatağından aparılmışdır. Naxçıvanın dağlıq zonasında yerləşən Neolit və Eneolit abidələrinin tədqiqi ilə köçmə maldarlığın e.ə. VI-V minilliklərdə inkişaf etdiyi müəyyənləşdirilmişdir. Araşdırmalar Zəngəzur və Göyçə hövzəsinin Azərbaycanda yaşayan qədim tayfaların təsir dairəsinə daxil olduğunu sübut etmişdir. Şərur rayonunda Qızqala yaşayış yerinin və nekropolunun tapıntıları burada məskunlaşan insanların əkinçilik və maldarlıqla məşğul olduğunu, bu tayfaların oturaq və köçəri həyat tərzini mənimsədiyini təsdiq edir. Araşdırmalar e.ə. III minilliyin sonu və II minilliyin əvvəlində Naxçıvan, Şərqi Anadolu və Urmiya hövzəsində məskunlaşan tayfaların ortaq mədəniyyətə və qədim dövlətçilik ənənələrinə malik olduğunu göstərmişdir. Oğlanqalada 2006-2011-ci illərdə aparılan arxeoloji tədqiqatlar bu yaşayış yerinin urartulara qarşı mübarizə aparan bir dövlətin paytaxtı olduğunu göstərmişdir. Arxeoloji və yazılı mənbələrin tədqiqi Oğlanqalanın Etiuni tayfa birliyi ilə ittifaq yaratdığını müəyyən etməyə imkan vermişdir. Elmi yeniliklər çoxdur. Son illərin tədqiqatları zamanı Naxçıvanda Dalmatəpə və Ubeyd mədəniyyətinin izləri aşkar olunmuşdur.

***– Ümumiyyətlə, tarixin izini siz arxeoloqlar necə müəyyənləşdirirsiniz, axtarışlar nəyə əsaslanır?***

– Tarixin izləri tarix və mədəniyyət abidələrimizdə qorunub saxlanıb. Tarixi abidələrin yerini memarlıq qalıqları, keramika nümunələri, əmək alətləri və digər maddi mədəniyyət qalıqlarına əsasən müəyyən edirik. Abidələrdən aşkar olunan maddi mədəniyyət nümunələri əsasında onların nisbi xronologiyası müəyyən edilir. Arxeoloji qazıntılar isə abidələrimizin dəqiq tarixini müəyyən etməyə imkan verir. Bu baxımdan, karbon analizlərin nəticələri xüsusilə əhəmiyyətlidir.

***– Bülövqaya yaşayış yeri haqqında məlumat verməyinizi xahiş edirik.***

– Bülövqaya yaşayış yeri Babək rayonunun Göynük kəndi yaxınlığında, Sarısu çayının sol sahilində, dəniz səviyyəsindən 1430 m yüksəklikdə yerləşir. Bülövqaya yaşayış yerində 2019-2023-cü illərdə yerüstü araşdırmalar, 2023-cü ildə isə iki kiçik sahədə qazıntı aparılmışdır. Yaşayış yerində geniş arxeoloji tədqiqatlar 2024-cü ildə başlamışdır. 2024-2026-cı illərdə 1000 kv.m sahədə arxeoloji tədqiqat aparılmışdır. Yaşayış yerinin tədqiqi Bülövqayada məskən salan tayfaların köçmə maldarlıqla məşğul olduğunu deməyə imkan verir. Bülövqaya yaşayış yerinin tədqiqi e. ə. VI-V minilliklərdə Mesopotamiya ilə Naxçıvan arasında iqtisadi-mədəni əlaqələrin genişləndiyini göstərir. Bülövqayada keramika məmulatının əksəriyyətini təşkil edən sadə və boyalı keramika Ubeyd mədəniyyətinin xüsusiyyətlərini əks etdirir. Bülövqayada çox sayda Ubeyd tipli keramikanın aşkar olunması türkdilli Ubeyd tayfalarının e. ə. VI minilliyin sonunda şimala doğru hərəkət edərək Naxçıvanda məskən saldığını təsdiq edir. Ubeyd tayfalarının Naxçıvana doğru hərəkəti, şübhəsiz ki, Cənubi Qafqazın zəngin xammal yataqları, xüsusilə obsidian və mis yataqları, həmçinin bol otlaqları ilə bağlı olmuşdur. Bülövqaya keramikası arasında Naxçıvan və Urmiya hövzəsi üçün xarakterik keramikanın aşkar olunması bu mədəniyyətin yerli mədəniyyətlərlə qarşılıqlı əlaqədə olduğunu göstərir. Mesopotamiya, Urmiya hövzəsi və Şərqi Anadoluda yayılan Ubeyd keramikasından bəzi xüsusiyyətləri ilə seçilən Bülövqaya keramikası, Ubeyd mədəniyyətinin yerli bir variantı kimi dəyərləndirilə bilər.

***– Bu qədim yaşayış yerində aparılan ekspedisiyaların nəticələri tarix elminə nə bəxş edir?***

– İndiyədək Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Neolit dövrü ilə Son Eneolit dövrü arasında xronoloji boşluq var idi. E.ə. VI minilliyin sonu və V minilliyin qədim mədəniyyətləri haqqında məlumat yox idi. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Naxçıvantəpə və Bülövqayada aparılan tədqiqatlarla bu boşluğu doldura bildi. Naxçıvantəpədə Dalmatəpə, Bülövqayada isə Ubeyd mədəniyyətinin izləri aşkar olundu. Bülövqaya yaşayış yerinin tədqiqi Şimali Mesopotamiya, Urmiya hövzəsi və Naxçıvanda yaşayan tayfalar arasında mədəni əlaqələri bərpa etməyə imkan verdi. Tədqiqatlar Urmiya hövzəsi, Şərqi Anadolu və Naxçıvanı əhatə edən bölgədə Ubeyd mədəniyyətinin təsiri ilə Bülövqaya mədəniyyətinin formalaşdığını təsdiq etdi ki, bu da qədim tariximizin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Arxeoloji qazıntılar zamanı buradan Erkən Eneolit dövrü üçün xarakterik saman qarışıqlı və boyalı keramika nümunələri, dəvəgözü (obsidian) və çaxmaqdaşından hazırlanan əmək alətləri, eləcə də sümük alətlər aşkarlanıb. Bu tapıntılar Naxçıvanın Cənubi Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu sübut edir.

***– Naxçıvanda arxeoloji turizm anlayışını yaratmaq üçün ilk nədən başlamalıyıq?***

– Arxeoloji turizm anlayışını yaratmaq üçün, ilk növbədə, qədim mədəniyyətlərimizi, dünyada bərabəri olmayan I Kültəpə, Naxçıvantəpə, Bülövqaya, II Kültəpə, Ovçulartəpə, Maxta Kültəpə, Qızqala, Oğlanqala, Xaraba Gilan kimi abidələrimizi təbliğ etməliyik. Bu abidələr qorunmalı və infrastruktur inkişaf etdirilməlidir.

***– AMEA Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində arxeoloq kadrlar hazırlanırmı?***

– Bəli, bu sahədə müəyyən uğurlar vardır. Artıq AMEA Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində bu sahə üzrə kadrlar yetişdirilmişdir. Arxeoloji kadrların hazırlanması üçün Naxçıvan Dövlət Universitetində magistrlərin hazırlanmasına başlanılmışdır. Gənc kadrlar bizim ekspedisiyalarımızda da iştirak edirlər. Bülövqaya arxeoloji ekspedisiyasında gənc arxeoloqlardan Elmar Baxşəliyev və Ziniyət Süleymanova xüsusilə fərqlənirlər. Onlar arxeoloji tapıntıların qeydə alınmasında və bərpasında fəal iştirak edirlər. Qədim mədəniyyət nümunələrinin bərpasında süni intellektdən istifadə xüsusilə faydalıdır və Bülövqaya mədəniyyətinin xüsusiyyətlərini aydın şəkildə öyrənməyə imkan verir.





***– Vəli müəllim, Bülövqaya və digər abidələrimizin beynəlxalq ictimaiyyətə tanıdılması üçün hansı işlər görülür?***

– Bu sahədə xeyli işlər vardır. Abidələrimizi və qədim mədəniyyətlərimizi dünyada təbliğ etmək üçün Azərbaycan, türk, rus, ingilis, alman, fars və digər dillərdə məqalələr hazırlayıb beynəlxalq elmi jurnallarda nəşr etdiririk. Radio və televiziya proqramlarında, qəzetlərdə, digər yazılı mətbuat orqanlarında, eləcə də sosial şəbəkələrdə abidələrimizlə bağlı geniş məlumat verilir.

***– Vəli müəllim, müsahibə üçün sağ olun.***

– Mən sizə və "Şərq qapısı" qəzetinin bütün əməkdaşlarına çətin bir coğrafiyada yerləşən Bülövqaya yaşayış yerindəki arxeoloji tədqiqatları işıqlandırdığınız üçün təşəkkür edirəm.

**✍ Ruhiyyə RƏSULOVA**



# Naxçıvanda 20 məscid kitab rəfləri və kitablarla təmin olunub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun həyata keçirdiyi “Hər məsciddə kitabxana” layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında bir sıra məscidlərə kitab rəfləri və hər birinə 100 ədəd olmaqla kitablar təqdim olunub.

Qeyd edək ki, “Hər məsciddə kitabxana” layihəsi 2025-ci ildən həyata keçirilir və Naxçıvan Muxtar Respublikasında Sədərək, Şərur, Kəngərli, Babək, Şahbuz, Culfa və Ordubad rayonlarını, eləcə də Naxçıvan şəhərini əhatə edir. Layihə çərçivəsində muxtar respublika üzrə, ümumilikdə, 20 məscid kitab rəfləri və hər birinə 100 ədəd olmaqla kitablarla təmin edilib. Təqdim olunan nəşrlər sırasında dini ədəbiyyatla yanaşı, fəlsəfə, tarix, ədəbiyyat və digər humanitar sahələrə aid kitablar, həmçinin Azərbaycan və dünya klassiklərinin əsərləri də yer alır.

Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin Dini qurumlarla iş və ekpertizası şöbəsinin müdiri Mərziyyə Hacıyeva bildirib ki, layihə məscidlərdə mütaliə mühitinin formalaşdırılmasına, milli-mənəvi dəyərlərin təbliğinə və xüsusilə gənclər arasında oxu mədəniyyətinin inkişafına xidmət edir. Onun sözlərinə görə, məscidlər təkcə ibadət məkanı deyil, həm də maarifləndirici və mənəvi inkişafın dəstəkləndiyi ictimai məkandır. Müxtəlif mövzuları əhatə edən nəşrlərin kitab rəflərində yer alması müxtəlif yaş qruplarından olan oxucuların biliklərini artırmaq və mütaliəyə marağını gücləndirmək məqsədi daşıyır.



Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Əli Orucov isə qeyd edib ki, məscidlərə kitab rəflərinin və kitabların təqdim olunması olduqca faydalı və əhəmiyyətli təşəbbüsdür. Onun sözlərinə görə, layihənin əsas məqsədi insanların, xüsusilə də gənclərin kitaba marağını artırmaq, onların asudə vaxtlarını daha səmərəli keçirmələrinə şərait yaratmaqdır. Qazı vurğulayıb ki, məscidlər tarixboyu ibadətlə yanaşı, elm və maarif ocağı kimi fəaliyyət göstərib. Bu gün də məscidlərdə yaradılan kitab guşələri insanların dini, tarixi və mənəvi mövzularda biliklərini zənginləşdirməsinə, dünyagörüşünü genişləndirməsinə imkan yaradır.

Əli Orucov bildirib ki, kitab insanı daha məlumatlı və düşüncəli edən ən dəyərli vasitələrdən biridir. O hər bir vətəndaşı məscidlərdə yaradılan kitabxanalardan istifadə etməyə və mütaliəyə daha çox vaxt ayırmağa çağırıb. Qazı bu təşəbbüsün gələcəkdə daha da genişlənəcəyinə və cəmiyyətdə kitab oxuma mədəniyyətinin inkişafına mühüm töhfə verəcəyinə inandığını ifadə edib.



Beləliklə, “Hər məsciddə kitabxana” layihəsi məscidlərin yalnız ibadət məkanı deyil, həm də maarif və mütaliə ocağı kimi rolunu daha da möhkəmləndirir. Layihə insanların, xüsusilə gənclərin kitabla daha sıx təmas qurmasına, milli-mənəvi dəyərlərin və oxu mədəniyyətinin inkişafına xidmət etməklə yanaşı, məscidlərin ictimai-maarifləndirici funksiyasının gücləndirilməsinə də töhfə verir.



# Naxçıvanda ilk qadın kənd təsərrüfatı kooperativi yaradılıb



Naxçıvan Muxtar Respublikasında “Aqrosahibkar qadınlarla iş” layihəsi çərçivəsində yaradılan “Fermer” İstehsal-İstehlak Qadın Kooperativinin təqdimatı keçirilib.

Layihənin koordinatoru Gülbəniz Qənbərova bildirib ki, kooperativ kənd qadınlarının iqtisadi imkanlarının genişləndirilməsi, istehsal potensialının birləşdirilməsi və bazar əlaqələrinin gücləndirilməsi məqsədilə yaradılıb.



Hazırda kooperativ Sədərək, Culfa, Ordubad, Babək və Şərur rayonlarını təmsil edən 32 qadın aqrosahibkarı birləşdirir. Üzvlər heyvandarlıq, taxılçılıq, bağçılıq, meyvəqurutma, quşçuluq, çörək və şirniyyat istehsalı kimi sahələrdə fəaliyyət göstərirlər.

Kooperativ üzvlərinin istehsal etdiyi 100-dən artıq çeşiddə məhsul yerli bazarlarda, eləcə də Türkiyənin İğdır vilayətində satışa çıxarılır. Bununla belə kooperativin hələlik vahid ticarət brendi olmadığından məhsullar istehlakçılara digər şirkətlərin markaları altında təqdim edilir. Kooperativin əsas hədəfləri vahid məhsul markasının formalaşdırılması, qablaşdırma və marketinqin təkmilləşdirilməsi, satış bazarlarının genişləndirilməsi, logistika və rəqəmsal satış imkanlarının inkişafı, eləcə də ixrac potensialının artırılmasıdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsinin Kooperativlərin İnkişafı sektorunun müdiri İsrafil Həsənli kooperativin fəaliyyət istiqamətlərini yüksək qiymətləndirib. “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nda kooperativlərin inkişafı, kənd yerlərində sahibkarlığın təşviqi və aqrar sahədə dayanıqlı inkişaf üçün nəzərdə tutulan dəstək mexanizmləri barədə məlumat verib.

Təqdimat zamanı “Fermer” İstehsal-İstehlak Qadın Kooperativinin sədri vəzifəsinə Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi Mehparə Hüseynova seçilib.

Naxçıvanda ilk dəfə yaradılan qadın kənd təsərrüfatı kooperativinin kənd qadınlarının iqtisadi fəallığının artırılmasına, ailə təsərrüfatlarının gəlirlərinin yüksəldilməsinə və aqrar sahənin inkişafına töhfə verəcəyi qeyd olunub.

## Elan

Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi Naxçıvan şəhərinin estetik yaxşılaşdırılması, şəhər infrastrukturunun müasir tələblərə uyğun saxlanılması və abadlıq işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə şəhər ərazisində yerləşən Heydər Əliyev Muzeyinin qarşısındakı döşəmə örtüyünün və Zəfər parkı ərazisində mövcud olan mərmər üzlüklərin təmiri, həmçinin Azərbaycan küçəsi, Zərifə Əliyeva küçəsi, döngə 1, Əliqulu Qəmküsar küçəsi, Babək məhəlləsi ünvanlarında yolkənarı hasarlarında və bordürlərində cari təmir aparılaraq yeni suvaq qatının çəkilməsi və rənglənməsi işlərinin həyata keçirilməsi, səkilərin, bordürlərin yararsız hala düşmüş hissələrinin bərpası və səki daşlarının yenilənməsi və rəngləmə işlərinin görülməsi üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şirkətlər 14 iyul 2026-cı il tarixdən 21 iyul 2026-cı il tarixədək Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə müraciət edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Kazım Talıblı küçəsi, ev 20***
***Əlaqə telefonu: 055-250-85-74***

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 8 iyul 2026-cı il tarixli 24 nömrəli Qərarına əsasən “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxs ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

Ləğvedici: Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

***Ünvan: Heydər Əliyev prospekti, 42$^{A}$***
***Əlaqə telefonu: (+99436) 550-13-96***
***E-mail: aasmn.nmr@sosial.gov.az***

## *İtmişdir*

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Rzayeva Nisə Rza qızının adına verilmiş JN-795$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Musayev Qafar Bayram oğlunun adına olan JN-1152$^{A}$ nömrəli, 10101008 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Məmmədov Arif Duman oğlunun adına olan JN-194$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Tumbul kənd sakini Məmmədov Əsvər Məmməd oğlunun adına olan JN-276 inventar nömrəli, 10307028 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kəndində yaşamış Qasımov Mehbalı Əkbər oğlunun adına olan JN-297$^{A}$ nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Rəhimov Abdulla İsa oğluna məxsus JN-760$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kəndində yaşamış Qasımov Sabir Həmid oğluna məxsus JN-444$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 2-ci məhəllə, 3/7$^{C}$-də yaşayan İbrahimov Mübariz Zahir oğlunun adına olan A-051384 və A-033020 nömrəli, 104013018645 və 104012000167 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, M.Müşfiq küçəsi, 13 ünvanında Babayev Yaşar Əli oğlunun adına olan AA-007020 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Məmmədov Natiq Eyvaz oğlunun adına olan JN-512$^{A}$ nömrəli, 10305018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Abbasova Zərifə M.Tağı qızına məxsus JN-627$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dizə kəndində yaşamış Sadıqov Əyyub Ciloxan oğluna məxsus JN-148$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dizə kənd sakini Sadıqov Vaqif Əyyub oğluna məxsus JN-126$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Heydər Əliyev prospekti, bina 35, mənzil 54 ünvanında Məmmədova Vüsalə Arif qızına məxsus 102011000020-05101-093007 reyestr nömrəli mənzilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 148

*Nömrəyə məsul:* **Rafiq Təhməzov, Elnurə Cəfərova**
*Dizayner:* **Həbibə Allahverdiyeva**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*